# Müharibəni udan tərəf sülhə çağırır

**Bakının xoşməramlı, sülhə yönəlik addımları müqabilində İrəvanın adekvat hərəkət etmədiyi göz qabağındadır.**



Beynəlxalq platformalarda Azərbaycanla sülh sazişini dərhal imzalamağa hazır olduğunu bəyan edən Ermənistanın baş naziri, eyni zamanda, Qərbdən və Şərqdən silah-sursat tədarük edir, tərəfdarları ilə hərbi bloklar yaratmaq istiqamətində konkret addımlar atır. Rəsmi İrəvan siyasi riyakarlığını gizlətməkdən ötrü yüz üsula əl atsa da, artıq bunu gizlətmək mümkün deyil.

*(ardı 3-cü səhifədə)*

# Avropa İttifaqının siyasi hoqqabazlıq nümunəsi – Stano

**Həyasızlıq. Avropa İttifaqının xarici siyasət xidmətinin rəsmi nümayəndəsi Peter Stanonun "Armenpress"ə müsahibəsində Azərbaycanla, ümumən, Cənubi Qafqazda sülh prosesi ilə bağlı bildirdiklərini ancaq belə adlandırmaq mümkündür. Tam əminliklə deyə bilərik ki, indiki məqamda Stano Qərb siyasətindəki riyakarlığın və ikiüzlülüyün ən bariz obrazıdır.**

Əslində, Aİ rəsmisinin qeyri-standart, qeyri-adekvat fikirlər səsləndirməsi ilk dəfə deyil. Onun bundan əvvəl də belə demək mümkünsə, bacarıqlı ermənipərəst rolundakı çıxışları az olmayıb. Görünür, mövcud istiqamətdə daha "irəli" getməyi düşünüb. Adama heyfimiz gəlir. Obrazlı desək, yeriyəndə qarşısına baxmır. İraq olsun, gedib özünü stolbaya çırpacaq, başı-gözü dağılacaq.

(ardı 3-cü səhifədə)



# TAP Avropanın qaz təchizatında önəmli marşrutdur

**Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik boru kəmərinin (TAP) Avropanın enerji təhlükəsizliyinin təminatında rolu getdikcə artır.**



Ötən müddətdə Xəzər regionu ilə "köhnə qitə" arasında vacib enerji körpüsü rolunu oynayan TAP kəməri ölkəmizi Avropa İttifaqının mötəbər enerji tərəfdaşına çevirib. Artıq 4 ilə yaxındır ki, Azərbaycan qazını Avropa bazarına nəql edən bu boru kəməri enerji ixracının şaxələndirilməsinə də mühüm töhfələr verib. Avropanın təbii qaza artan tələbatı isə Cənub Qaz Dəhlizinin, o cümlədən onun mühüm seqmenti olan TAP-ın genişləndirilməsinə zərurət yaradıb.

Bu yaxınlarda sözügedən kəmərin genişləndirilməsi çərçivəsində infrastruktur işlərinə başlanılacaq. Bu da Avropaya nəql edilən "mavi yanacağ"ın həcmini iki dəfəyədək artırmağa imkan yaradacaq. Eyni zamanda, boru kəmərinin genişləndirilməsi ilə yanaşı, yeni interkonnektorların (birləşdirici kəmər) tikintisi də nəzərdə tutulur. İnterkonnektorlar isə Azərbaycan qazının alıcılarının sayının artmasına, Avropada enerji tərəfdaşlarımızın çoxalmasına gətirib çıxaracaq.

(ardı 7-ci səhifədə)


Xalqın qəzeti!

# Xalq qəzeti

№ 213 (30617) 29 sentyabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan dünyada iqlim dəyişikliyi ilə mübarizənin ön cəbhəsidir

**Bu gün beynəlxalq aləmdə bir çox qlobal problemlər– müharibələr, epidemiya və pandemiya təhlükələri, millətlərarası və dinlərarası konfliktlər, iqlim dəyişiklikləri bəşəriyyətin gələcəyi, ümumiyyətlə, Yer kürəsinin mövcudluğu baxımından çox ciddi narahatlıq doğurur. Həmin qlobal problemlər sırasında daha ciddi bəşəri təhlükə kimi iqlim dəyişiklikləri və ekoloji tarazlığın pozulması halları xüsusi vurğulanır və yaşadığımız qalaktikada yeganə həyat mənbəyi olan Yer planetinin hazırda müəyyən təhlükələrlə üzləşdiyi bildirilir. Bu təhlükəyə qarşı aparılan mübarizəyə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin xüsusi yanaşması, bu istiqamətdə həmrəyliyin artırılması da məhz canlı aləmin mövcudluğunu qorumağa yönələn niyyətdən irəli gəlir.**




Şübhəsiz ki, bütün canlıların varlığı üçün başlıca amil ətraf mühitin qorunub saxlanılmasıdır. Amma bu gün iqlim dəyişmələrinin, ekoloji tarazlığın pozulmasının canlı orqanizmə mənfi təsiri isə təəssüf ki, intensiv şəkildə artmağa meyillidir.

Təbiətin varlığı insan orqanizminə birbaşa və dolayı yolla təsir edə bilən, onun sağlamlığının formalaşmasında mühüm əhəmiyyət daşıyan ətraf mühitdir. Qlobal iqlim dəyişmələri, ekoloji tarazlığın pozulması isə insanların sağlamlığına və həyat tərzinə güclü təsir göstərən amillərdəndir. Xüsusən körpələrin, uşaqların və yeniyetmələrin fiziki və əqli cəhətdən sağlam inkişafında yaşadığımız təbii mühit amili mühüm əhəmiyyət kəsb edir.

Atmosfer havası insanın nəfəs almasını, oksigen tələbatını ödəyərək yaşamasını gerçəkləşdirir. İnsan orqanizmi ilə hava mühiti arasındakı uyğunlaşmanın pozulması isə insana müxtəlif formalarda mənfi təsir göstərir. Havanın fiziki xassələri, kimyəvi tərkibi və bakterioloji göstəricilərdə mütəmadi baş verən dəyişikliklər insanların sağlamlığında, həyat fəaliyyətində və əmək qabiliyyətində özünü həlledici formada büruzə verir. Havanın kəskin dəyişməsi orqanizmdəki istilik tənzimləmə sisteminə və orada gedən fizioloji proseslərə təsir göstərməklə bəzi xəstəliklərin baş verməsinə şərait yaradır.

*(ardı 8-ci səhifədə)*

# Qlobal innovasiya indeksində ölkəmizin mövqeyi yüksəlib




**BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 133 iqtisadiyyatı əhatə edən 17-ci Qlobal İnnovasiya İndeksində ölkəmiz "Biznes mühiti" indikatoru üzrə 2 pillə irəliləyərək 15-ci yerdə qərarlaşıb.**

İnnovasiyalar və biznesin inkişafı üçün əlverişli mühitin mövcudluğunu ifadə edən bu göstəricisi ilə Azərbaycan həm də bir çox region dövlətlərini qabaqlayaraq "biznes siyasətinin sabitliyi" alt-indikatorunda isə 3 pillə irəliləyərək 19-cu sırada mövqeyini möhkəmləndib. "Biznesin inkişafı" indikatoruna görə ölkəmiz 67-ci pillədə yer alıb.

(ardı 7-ci səhifədə)

# İqtisadi kredit qoyuluşları 23 faiz çoxalıb



Səhifə ⇨ 7

# Bakı sərgilərində ölkəmiz hərbi gücünü nümayiş etdirdi




Səhifə ⇨ 11

# Son illərdə ölkədə orta istilik 1,1 dərəcə yüksəlib



Səhifə ⇨ 8

# Bağdadda Füzuli festivalı



*(əvvəli qəzetin 27 sentyabr sayında)*

**Nümayəndə heyəti gün batanda Kərkükə yetişir. Kərkük adı azərbaycanlı ziyalılara çox yaxşı tanışdır. İraq-türkman folkloruna aid kitablarda bu şəhərin adını dəfələrlə oxumuş və sevmişlər. Şəhər əhalisinin öz soydaşları olmasını da yaxşı bilirlər. Orada bütün təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə təşkil olunur və hökumət qüvvələri gücləndirilmiş iş rejiminə keçir. Heyət axşamüstü "Qəsri-Kərkük" otelində yerləşdirilir. Şam yeməyindən dərhal sonra oteldə kiçik bir toplantı təşkil edilir. Azərbaycan nümayəndə heyətinin bəzi çox gizli görüşləri üçün planlar göz-qaş işarələri və quş dilinə bənzər şəkildə həyata keçirilir...**

"Kərkük bayatıları", "Kərkük atalar sözləri və məsəlləri", "Kərkük maniləri", "Altı il Dəclə-Fərat sahillərində" və s. kitablar vasitəsilə İraq-türkman folklorundan xəbərdar olan hər kəs çox yaxşı bilir ki, Kərkük Azərbaycan üçün çox dəyərli elm adamı Ətə Tərzibaşının adıyla ayrılmaz şəkildə bağlıdır. Həm də Ətə Tərzibaşının kitabları Türkman–Azərbaycan ədəbiyyatını öyrənən araşdırmaçılar üçün əvəzsiz mənbədir. Buna görə də belə bir şəxsiyyətin ziyarət olunması çox önəmli və vacib idi. Azərbaycan nümayəndə heyətindən seçilmiş adamları Mustafa Ziya və Sabah Karaaltun plan quraraq gizli şəkildə Ətə Tərzibaşının evinə aparırlar.

(ardı 10-cu səhifədə)

# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 iyul tarixli 162 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə”nin 5.5.8-ci yarımbəndinə “sərəncamçısı olaraq” sözlərindən əvvəl “, habelə Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların gördüyü işlərdən (göstərdiyi xidmətlərdən) əldə olunan gəlirlərin” sözləri əlavə olunsun və həmin yarımbənddə “Agentlik” sözü “Agentliyin” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 28 sentyabr 2024-cü il**

# “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı müraciətlərə baxılmanın elektronlaşdırılmasını təmin etmək məqsədilə üç ay müddətində zəruri tədbirlər görsün;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3** Bu Fərmanın 1-ci hissəsi 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 28 sentyabr 2024-cü il**

# “Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi”nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** “Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2.** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları:

2.1. dövlət idarəetməsinin təkmilləşdirilməsi, səmərəliliyinin və şəffaflığının yüksəldilməsi məqsədilə göstərdikləri xidmətlərin və daxili idarəetmə proseslərinin (kadrların idarə olunması, maliyyə-uçot və mühasibat, təchizat və təminat) rəqəmsallaşdırılmasını təmin etsinlər;

2.2. sahibi və (və ya) operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin qiymətləndirilməsinə, eləcə də monitorinqlərin (auditlərin) aparılmasına şərait yaratsınlar və onların nəticələri əsasında aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görsünlər;

2.3. sahibi və (və ya) operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrində, fərdi məlumatların dövlət informasiya sistemlərinin isə həmçinin fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrində qeydiyyata alınmasını altı ay müddətində təmin etsinlər.

**3** “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə uyğun olaraq, inzibati orqanlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olan, qanunla ərizəyə əlavə edilməli sənədlərin və ya məlumatların siyahısının xidmət göstərdikləri binalarda müvafiq məlumat lövhələrində və rəsmi internet səhifələrində yerləşdirilməsini və mütəmadi yenilənməsini təmin etsinlər.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**5** “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1826 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

“3-1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

3-1.1. dövlət informasiya ehtiyatlarını və sistemlərini mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin;

3-1.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsizlik meyarları üzrə monitorinqini və ildə bir dəfədən az olmayaraq təhlükəsizlik üzrə auditini həyata keçirsin;

3-1.3. dövlət informasiya ehtiyatları və sistemləri istismara verilməzdən əvvəl onların informasiya təhlükəsizliyi tələblərinə cavab verməsi ilə bağlı rəy versin;

3-1.4. sahibi və operatoru ilə birlikdə dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

3-1.5. Elektron Hökumət İnformasiya Sisteminin (EHİS) və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə onlara inteqrasiya edilən və miqrasiya olunan dövlət informasiya ehtiyatlarının və sistemlərinin sahibləri, operatorları, habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə zəruri tədbirlər görsün.”;

5.2. həmin Fərmanla təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları” üzrə:

5.2.1. 1-ci hissə üzrə:

5.2.1.1. 1.2.1-ci yarımbəndə “publik hüquqi şəxslər” sözlərindən sonra “və digər büdcə təşkilatları” sözləri əlavə edilsin;

5.2.1.2. aşağıdakı məzmunda 1.2.2-1-ci və 1.2.14-1-ci yarımbəndlər əlavə edilsin:

“1.2.2-1. dövlət informasiya sisteminin altsistemi – vahid interfeys əsasında dövlət informasiya sisteminin bir-biri ilə əlaqəli olan bir sıra funksionallıqlarının həyata keçirilməsini təmin edən, proqram təminatı və texnoloji avadanlıqların məcmusu olan struktur hissə;”;

“1.2.14-1. elektron kabinet – dövlət informasiya ehtiyatının və sistemininin istifadəçisini Vahid Giriş Sistemi vasitəsilə identikləşdirməklə, qanunla müəyyən edilmiş hallar istisna olmaqla, onun özü barəsində məlumatlarla tanış olmasını, onları əldə etməsini və dəyişdirilməsi üçün müraciət etməsini, habelə digər müraciətlərini elektron formada göndərməsini, elektron xidmətlərdən istifadə etməsini, ödənişlər həyata keçirməsini (ödəniş xidməti təchizatçıları vasitəsilə), həmçinin dövlət informasiya ehtiyatının və sisteminin sahibi, operatoru, iştirakçıları və digər istifadəçiləri ilə qarşılıqlı əlaqəsini, eləcə də dövlət informasiya ehtiyatı və sistemi iştirakçısının Vahid Giriş Sistemi vasitəsilə identikləşdirilməklə dövlət informasiya ehtiyatının və sisteminin sahibi və operatoru ilə qarşılıqlı sənəd (məlumat) mübadiləsini təmin edən fərdi elektron səhifə;”;

5.2.1.3. 1.5-ci bənddə “həmin sahəni” sözləri “, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri” sözləri ilə əvəz edilsin;

5.2.2. 2-ci hissə üzrə:

5.2.2.1. 2.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.9–2.1.12-ci yarımbəndlər əlavə edilsin:

“2.1.9. istifadə rahatlığı – istifadənin və informasiya mübadiləsinin rahat, əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

2.1.10. funksionallıq və davamlı inkişaf – dövlət informasiya ehtiyatının və sisteminin inkişaf etdirilməsi imkanını təmin edən proqram-texniki komponentlərin olması, ən son texnologiyalardan istifadə etməklə həmin informasiya ehtiyatının və sisteminin daim təkmilləşdirilməsi;

2.1.11. operativlik – xidmət göstərilməsinin, informasiyanın əldə olunması və mübadiləsinin avtomatlaşdırılmış qaydada və sürətli şəkildə həyata keçirilməsi;

2.1.12. şəffaflıq – dövlət informasiya ehtiyatının və sisteminin fəaliyyətində və xidmət göstərilməsində aşkarlığın və hesabatlılığın təmin edilməsi.”;

5.2.2.2. 2.5.1-ci yarımbəndə “adı” sözündən sonra “(müvafiq olaraq informasiya ehtiyatı və ya informasiya sistemi olması göstərilməklə)” sözləri əlavə edilsin;

5.2.3. 3.3-cü bəndə və 3.5.2-ci (hər iki halda) yarımbəndə “gücləndirilmiş” sözündən əvvəl “təkmil sertifikatlı” sözləri əlavə edilsin;

5.2.4. 5.10-cu bəndin ikinci cümləsinə “Reyestrə” sözündən sonra “, fərdi məlumatların işlənildiyi və mühafizə edildiyi dövlət informasiya ehtiyatına münasibətdə isə həmçinin fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə” sözləri əlavə edilsin;

5.2.5. 6-cı hissə üzrə:

5.2.5.1. 6.0.4-cü yarımbəndə “əməkdaşlarını” sözündən sonra “təkmil sertifikatlı” sözləri əlavə edilsin;

5.2.5.2. 6.0.5-ci yarımbəndə “məlumatları” sözündən sonra “(sənədləri)” sözü əlavə edilsin;

5.2.5.3. 6.0.6-cı və 6.0.12-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“6.0.6. dövlət informasiya ehtiyatına və sisteminə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsini, habelə daxil edilmiş məlumatların aktuallığını, etibarlılığını, təhrifolunmazlığını, əlçatanlığını, tamlığını və konfidensiallığını təmin etmək üçün tədbirlər görmək;”;

“6.0.12. dövlət informasiya ehtiyatının və sisteminin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Əlaqələndirici quruma zəruri şərait yaratmaq, o cümlədən, normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə dövlət informasiya ehtiyatına və sisteminə çıxış, habelə onların texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;”;

5.2.5.4. aşağıdakı məzmunda 6.0.6-1-ci yarımbənd əlavə edilsin:

“6.0.6-1. dövlət informasiya ehtiyatı və sistemi vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini, o cümlədən kibertəhlükəsizliyini aidiyyəti dövlət qurumları ilə birgə təmin etmək;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 28 sentyabr 2024-cü il**

# Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naftalan neftinin çıxarılması, emalı, təchizatı proseslərinin təkmilləşdirilməsi, Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadənin genişləndirilməsi, eləcə də Naftalan şəhərinin sağlamlıq turizmi şəhəri kimi dünyada tanıdılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. altı ay müddətində:

1.1.1. Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. “Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” Azərbaycan Respublikası Qanununun 3.4-cü maddəsinə uyğun olaraq, “Naftalan” Kurortu haqqında əsasnaməni iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 28 sentyabr 2024-cü il**

# Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

**Hörmətli cənab Sədr!**

Çin Xalq Respublikasının yaranmasının 75-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı yetirməkdən böyük məmnunluq duyuram.

Ötən dövr ərzində Çin Xalq Respublikası bütün sahələrdə – iqtisadiyyat, sənaye, elm, kosmik tədqiqat, müasir texnologiyalar, müdafiə, əhalinin sosial-iqtisadi rifahı və digər sahələrdə mühüm nailiyyətlər əldə edərək beynəlxalq aləmdə yüksək nüfuz qazanmış, dünyanın ən güclü və qüdrətli dövlətləri sırasında yer almışdır. Bütün bu nailiyyətlərdə şəxsən Sizin də misilsiz rolunuz və xidmətləriniz vardır.

Dostluq və qarşılıqlı hörmət üzərində qurulmuş, gündən-günə yeni məzmunla zənginləşən Azərbaycan-Çin dövlətlərarası əlaqələrinin bugünkü səviyyəsi bizi sevindirir.

İyulda Astanada Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü, ikitərəfli münasibətlərin geniş spektri və əməkdaşlığımızın perspektivləri ətrafında apardığımız fikir mübadiləsini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, görüş əsnasında qəbul olunmuş “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” mühüm tarixi addım, əməkdaşlığımızı daha da genişləndirmək və möhkəmləndirmək istiqamətində qarşılıqlı əzmimizin bariz təzahürüdür.

Bu gün siyasi əlaqələrimizin yüksək səviyyəsi və fəal dialoq, iqtisadiyyat, ticarət nəqliyyat-logistika, telekommunikasiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün əlverişli şərait yaradır. “Kəmər və yol” və “Orta dəhliz” layihələri çərçivəsində səmərəli işbirliyimizi xüsusi qeyd etmək istərdim.

Eyni zamanda biz Çinlə iqlim dəyişmələri ilə mübarizədə, o cümlədən “yaşıl” enerji, yaşıl və aşağı karbonlu texnologiyalar sahələrində birgə fəaliyyətimizi daha da dərinləşdirmək, ölkənizin qabaqcıl təcrübəyə malik şirkətləri ilə daha sıx əməkdaşlıq etmək əzmindəyik. İnanıram ki, noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi COP29-da Çinin fəal iştirakı qlobal iqlim fəaliyyəti gündəliyinin irəli aparılmasına və gələcək nəsillərə daha təmiz və dayanıqlı dünyanı miras qoymaq məqsədinə çatmağımıza töhfə verəcəkdir.

Hörmətli cənab Sədr,

Əminəm ki, Azərbaycan ilə Çin arasında ənənəvi dostluq münasibətləri, həm ikitərəfli qaydada, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlığımız dost xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da inkişaf edəcək, strateji tərəfdaşlığımız daha da dərinləşəcəkdir.

Belə bir əlamətdar gündə bir daha Sizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq, rifah və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 26 sentyabr 2024-cü il**

# “Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Xüsusi, hərbi və diplomatik rütbələrin ixtisas dərəcələri ilə qarşılıqlı uyğunlaşdırılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 iyun tarixli 1371 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 586 (Cild I) ləğv edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 28 sentyabr 2024-cü il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2024-cü ilin oktyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| **Baş nazirin müavini**<br>Mustafayev Şahin Abdulla oğlu | 2 |
| **Aparatın rəhbəri**<br>Məmmədov Rüfət Tofiq oğlu | 3 |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>Həsənova Sevinc Telman qızı | 4 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 21 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>Paşayev Zakir İlqar oğlu | 8, 22 |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>Qasımlı Xalid Akif oğlu | 9, 23 |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>Rəhimov Niyazi Süleyman oğlu | 10, 24 |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>Həbibbəyli Ərəstü İsa oğlu | 11, 25 |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>Hacızadə Elşən Mahmud oğlu | 14, 28 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>Qasımov Lətif Cəfər oğlu | 15, 29 |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>Məcidov İlkin Sabir oğlu | 16 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>Mustafayev Feyruz Rəvayət oğlu | 17, 30 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>Pənahov Musa Sədi oğlu | 18 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>Məmmədov Anar Rəhim oğlu | 7, 31 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Avropa İttifaqının siyasi hoqqabazlıq nümunəsi – Stano

## *Yaxud ağlına gələni gözünü qırpmadan danışmaq "bacarığına" sözardı*

**(əvvəli 1-ci səhifədə)**



Yəni, Stano haqqında söz açdığımız aqibətə doğru inamla addımlayır. Ancaq fəlakət ondadır ki, vəziyyətdən xəbərsizdir. Bu xəbərsizlik isə bütövlükdə Aİ-nin və Avropanın özünü mütərəqqi adlandıran, ali dəyər və prinsiplərin qorunmasına xidmət etdiyini açıqlayan institut və təsisatlarının yaşadıqları böhran, əsl faciədir. Stano kimi təfəkkür sahiblərinin "köhnə qitə"ni deqradasiyaya doğru apardıqları şübhəsizdir.

Əlqərəz, P.Stano bildirir ki, Aİ Azərbaycanın təhlükəsizliyinə dəstəyi artırıb və qurum ölkəmizə minadan təmizləmə işlərini gerçəkləşdimək naminə ən çox yardım edən donordur. Sən demə, Aİ 2020-ci ildən indiyədək bu məqsədlə 13 milyon avro vəsait ayırıbmış və əlavə də 10 milyon avro ayıracaqmış. İndi bu minnətin qarşılığında nə deyək? Deyək ki, onun təmsil olunduğu Aİ-yə daxil olan ölkələr Azərbaycanın qazına möhtac durumdadırlar? Düz olmur axı belə demək. Çünki qazı avropalılara pulsuz satmırıq. Ancaq Aİ də bizə boş yerə vəsait ayırmır. Əslində, üst-üstə 23 milyon, Aİ-nin Ermənistana ayrıdığı yardımların yanında çox kiçik rəqəmdir. Məsələ barədə söz açacağıq.

Bəli, P.Stano abırsızcasına deyir ki, Azərbaycanın Ermənistanın millitarizasiyası ilə bağlı bildirdikləri əsassızdır. Birincisi, iddialarımız əsassız deyil, Ermənistan silahlanır, özü də sürətlə. İkincisi, lap tutalım, vəziyyət Stanonun dediyi kimidir. Başa düşmək olmur, Aİ rəsmisi İrəvanın vəkilidir? Digər tərəfdən, bəlkə Aİ-nin Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində "lövbər salmış" mülki müşahidə missiyası bir işə yarayıb? Nədir bu missiyanın faydası? Müşahidəçilərin gördükləri leqal işin təfərrüatları ilə bağlı hansısa ağlabatan izah varmı? Missiyanın hesabatındakı ayrı-ayrı məqamların təhlili belə deməyə əsas verir ki, onun üzvlərinin işi-peşəsi avtomobillərdə sərhədin bir başından, o biri başına yol getməkdir? Bununla əlaqədar rəqəmlər açıqlanmışdı. Sən demə, "misssiyaçılar" il ərzində üst-üstə 50 min kilometrdən çox yol sürüblər. Görəsən, Ermənistan ərazisi bunlar üçün safari turunun gerçəkləşdirildiyi məkandır? Bəlkə ralli yarışı meydançasıdır? Bu cür fəaliyyət göstərmək, hesabat, yaxud hesabatlılıq olar? Təbii ki, olmaz...

Əlbəttə, Aİ-nin Ermənistandakı mülki müşahidə missiyasında yer alanlar hərbçilərdir. Onların məqsədi kəşfiyyat məlumatları toplamaqdır. Ora-bura maşın süməklə bağlı bildirilənlər isə gözdən pərdə asmaqdır. Bəlkə, Stano gəncdir, belə şeylərdən xəbəri yoxdur. Xəbəri yoxdursa, onun diqqətinə çatdıraq ki, Aİ-nin mülki müşahidə missiyası Cənubi Qafqazda gərginlik yaratmağa hesablanmış təsisatdır. O təsisat ki, onu müəyyən mənada ATƏT-in vaxtilə mövcud olmuş, hazırda canını tapşırmış Minsk qrupuna çevirmək istəkləri var. Amma regionda siyasi missionerlik cəhdləri alınmır. Azərbaycan buna imkan tanımır və tanımayacaq da.

Stanonun diqqətinə bir məqamı da çatdıraq ki, hazırda Ermənistanın özündə ölkə iqtidarından başqa heç kəs Aİ-nin sərhəddəki missiyasının fəaliyyətindən razı deyil. Erməni millətçiləri hesab edirlər ki, sözügedən təsisat erməni avantürizminin qorunması baxımından heç bir əməli iş görmür. Hətta revanşist və şovinistlərin bəziləri missiyanı Azərbaycana işləməkdə də günahlandırırlar. Yaxşı olar ki, Stano bunlardan da xəbər tutsun və bilsin ki, Ermənistan hakimiyyəti müşahidəçilərin fəaliyyətini yalnız candərdi müsbət qiymətləndirir. Paşinyan və komandasındakılar nə etsinlər? Fransa Prezidenti Emmanuel Makronun Ermənistana doldurduğu siyasi misionerlərin bir qəpiyə yaramadığını bildirsinlər? Axı reallığı dilə gətirməzlər.

P.Stano, eyni zamanda, deyir ki, Aİ-nin Ermənistandakı müşahidə missiyasının üzvləri silahsız mülki şəxslərdir və məqsədləri regionda sülh yaratmaqdır. Birincisi, praktik baxımdan düşünək: Silahsız adamlar necə sülh yaradacaqlar? Bir-birinə atəş açan tərəflərə deyəcəklər ki, dalaşmayın? İkincisi, lap tutalım, müşahidəçilərin məqsədləri sülh yaratmaqdır. Ötən iki ildə bunu etdilərmi? Erməni silahlı birləşmələri dəfələrlə Azərbaycanın mövqelərini atəşə tutub. Bir dəfə həmin missiya bildiribmi ki, bu hal yolverilməzdir? Xeyr! Çünki məqsəd Ermənistanı qorumaqdır. Yeri gəlmişkən, heç onu da edə bilmirlər. Stano getsin, erməni anarxistlərin müxtəlif sosial şəbəkə profillərində missiya üzvlərinə ünvanladıqları "xoş sözlərə" nəzər salsın. İstəsə, həmin sözlərdən özünə pay da götürə bilər...

İndi isə keçək P.Stanonun fikirlərindəki təzada. Əvvəldə diqqətə çatdırdıq ki, Aİ rəsmisi Azərbaycanın Ermənistanın militarizasiyası ilə bağlı iddialarının, guya, əsassız olduğunu bildirib. Maraqlıdır ki, bu adam müsahibəsinin başqa bölümündə fərqli fikirlər səsləndirib. Məsələn, o deyib ki, Ermənistan suveren ölkədir və özünün müdafiə potensialı üzərində müstəqil şəkildə işləmək və tərəfdaş seçmək ixtiyarındadır. Yəni, bu adam, faktiki olaraq, inkar etdiyi silahlanmanın mövcudluğunu təsdiqləyir.

Ancaq P.Stanonu bir mənada haqlı saymaq olar. O bildirir ki, əgər siyasi iradə saxlanılsa, Azərbaycanın intensiv hərbi əməkdaşlığı sülh prosesinə maneçilik törətmir. Göründüyü kimi, bu adam Ermənistanın sürətli silahlanmasına haqq qazandırmaq üçün dəridən-qabıqdan çıxır. Təxminən belə: Ermənistan silahlanırsa, Azərbaycan da silahlansın. Deyəsən, Aİ rəsmisi çox ağıllıdır...

Birincisi, Stanonun Azərbaycanın hərbi əməkdaşlığı ilə Ermənistanın silahlanmasını eyniləşdirməsi absurddur. Çünki ikinci otuz ilə yaxın müddətdə işğalçılıq siyasəti həyata keçirib. İndiki durumda ona münasibət Hitler Almaniyasına olan münasibət kimi olmalıdır. Hərçənd, nə Stano, nə də bu şəxsin ağaları belə düşünürlər. Onlar Birinci Dünya müharibəsindən sonra Almaniyanın bəsləyənlərin, faşizm bəlasını bəşəriyyətin başına açanların getdikləri yolla gedir, Ermənistanı region üçün təhlükə mənbəyinə, təhdid alətinə çevirirlər. Məsələ bu qədər sadədir.

P.Stano onu da deyir ki, Aİ 2024-cü ilin iyulunda böhran durumlarında mülki əhalinin qorunmasının gücləndirilməsi üçün Ermənistana 10 milyon avro vəsait ayırıb. Cəmi bir ayda 10 milyon avro. Yəqin, təsəvvür edirsiniz, bu nə deməkdir. Stano, gərək, dörd ildə Azərbaycana ayrılmış 10 milyon avrodan heç danışmasın. Üstəlik, nəzərə alaq ki, İrəvana ayrılmış vəsait erməni silahlı qüvvələrinin maddi-texniki imkanlarının möhkəmləndirilməsinə xidmət edir. Stano isə vurğulayır ki, bu, Ermənistana silah verilməsi kimi qiymətləndirilə bilməz. Həyasızlıq olar, ta bu qədər yox. Necə deyərlər, Həsən keçəl, keçəl Həsən.

Amma həyasızlıq təkcə Stanonun ayağına yazılan xüsusiyyət deyil, bütövlükdə Aİ bununla bağlı məsuliyyət daşıyır. Görəsən, indiyədək qurum belə təyinatlı yardımı hansısa ölkəyə göstərib və ya ümumiyyətlə göstəribmi? Həqiqətən, çox ağla gəlməz şeydir. Aİ belə rüsvayçı yardım formasına görə utanmalıdır. Ancaq son dərəcə abırsız təsir bağışlayan Stanonu sırf müharibə təhlükəsi yaratmağa xidmət edən addımı əsaslandırmaq, ona leqal obraz qazandırmaq üçün qabağa verirlər. Aydındır ki, adamın dilə gətirdikləri əsaslandırma yox, sərsəmləmədir, mütərəqqi dəyərləri ayaqlar altına atmaqdır. Hələ Stano bildirir ki, bəs Aİ-nin ayırdığı pulla alınan hərbi texnika, guya öldürücü deyil, müdafiə xarakterlidir. Bir el misalımızda deyildiyi kimi, utanmasan, oynamağa nə var ki?!

Utanmazlıq və həyasızlıq nümayişindən sonra P.Stano onu da bildirir ki, Aİ Azərbaycanla Ermənistan arasındakı nizamlama prosesində tərəfsizdir. Bir ölkənin pulsuz silahla təminatına kömək göstərmək tərəfsizlikdirsə, onda Stano da Aİ rəsmisi yox, Roma papasıdır. Guya ki, bəşəri prinsiplər yerinə yetirirlər. Görəsən, Stano və Aİ-dəkilər anlayırlarmı ki, Azərbaycana minaların təmizlənməsi üçün vəsait ayırmaqla, Ermənistanın silahlı qüvvələrinə əhalinin müdafiəsi adı altında pul vermək tamam ayrı-ayrı şeylərdir. Birinci halda qurum mütərəqqi missiya yerinə yetirir, mina terroru kimi bəşəri bəlanın qarşısını alır, ikinci halda isə bəla üçün şərait yaradır. Budurmu tərəfsizlik? Ən sonda da Stano deyir ki, Aİ Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün bərqərar olması məqsədilə göstərilən səylərə sadiqdir. Qətiyyətlə deyə bilərik ki, Aİ Cənubi Qafqazda müharibə ocağının yaranması üçün reallaşdırılan bütün ambisioz addımların dəstəklənməsinə sadiqdir. Stanonun müsahibəsi isə bu "dəst-xəttin" dolğun çalarlarla vurğulanmasıdır. Başqa heç nə...

**Ə.CAHANGİROĞLU**
**XQ**

---

# Müharibəni udan tərəf sülhə çağırır

## *Azərbaycan xalqı haylarla dinc-yanaşı yaşamaq istəyir*

**(əvvəli 1-ci səhifədə)**



Azərbaycan bundan sonra Ermənistandan heç kimin ölkəmizə qarşı, eləcə də bölgədə sülhü təhdid edə biləcək revanşizm meyillərinə əl atmayacağına zəmanət istəyir. Onun bu zəmanəti verə bilməməyinin səbəbinin "haypərəst" Qərbin müxtəlif şirnikləndirici yollarla İrəvanı sülhdən yayındırmaq, Ermənistanda revanşizmi qızışdırmaq kimi məkrli planlarının olduğunu Bakı yaxşı bilir.

"Azərbaycanda təkcə erməni siyasi qüvvəsi ilə deyil, ümumiyyətlə, onların əsas axınında geniş yayılmış revanşizm hissi ilə bağlı narahatlıq var. "Tarixi Ermənistan" adı altında qonşu ölkələrin ərazilərinin işğalı ilə "böyük Ermənistan" yaratmaq anlayışı hələ də onların mentalitetindən silinməyib. Sanki bu gün Romada kimsə Roma İmperiyasının bərpa olunmasını iddia edir".

Diplomatik nöqteyi-nəzərdən maraqlı, siyasi cəhətdən bu məntiqli açıqlamanı Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İtaliyanın aparıcı mətbu orqanlarından sayılan "La Repubblica" qəzetinə geniş müsahibəsində verib. O, müsahibəsində, həmçinin Ermənistanla Azərbaycan arasında sülh prosesinin qarşısına çıxarılan maneələr, İrəvanın ərazi iddialarından əl çəkərək konstitusiyaya dəyişiklik edilməsi üçün referendum keçirməsi zərurəti, müstəmləkə keçmişi olan bəzi Qərb dövlətlərinin Afrikadakı kimi, Qafqazda da öz siyasətlərini və intriqalarını təbliği cəhdləri, Qarabağ ermənilərinin geri qayıtması şərtləri barədə suallara ərtaflı və arqumentli cavablar verib.

***

Yazımızı sadaladığımız mövzular ətrafında yerli ekspertlərin rəyləri əsasında qurmağa çalışdıq. Onların açıqlamalarını oxuculara təqdim edirik. **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu mövzunu "XQ" üçün şərh edərkən bildirdi ki,** Ermənistanın baş naziri Nikol Paşinyan BMT-dəki çıxışında Azərbaycanla qısa müddətdə sülh sazişinin imzalanmasında, o cümlədən, regional əməkdaşlıqda maraqlı olduğunu bildirib: "Azərbaycan da sülh və əməkdaşlıq istəyir. Ancaq bunun yolu Ermənistan konstitusiyasında Azərbaycana ərazi iddiasını ehtiva edən bəndin çıxarılmasında və İrəvanın hücum xarakterli silahların alınmasından imtinadan keçir. Paşinyan isə konstitusiya dəyişikliyi məsələsini yubatmağa çalışdığı kimi Fransadan uzaqmənzilli raketlər almaqda davam edir. Bu, regional sülhə və əməkdaşlığa əsas əngəldir. Ona görə də Hikmət Hacıyevin "Ermənistan üçün ən yaxşı həll yolu Azərbaycanın təhlükəsizliyini təhdid edən hərbi ittifaqlar yox,



neytrallıq olardı", – fikri Nikol Paşinyanın çıxış yollarından biridir. Ermənistan hücum xarakterli silahlar almaqdan əl çəkməklə yanaşı, hərbi bloklarda yer almaq hədəfindən də imtina etməlidir. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk etdikdən sonra Azərbaycan kimi hərbi bloklara qoşulmamaq siyasətini rəsmən elan etməlidir".

"Kollektiv Qərb"in Ermənistana müxtəlif adlar altında, eləcə də şübhəli layihələrlə pərdələnərək göstərdiyi hərbi yardımlarının Cənubi Qafqazda sülhə və sabitliyə xidmət etmədiyini vurğulayan siyasi icmalçı Azərbaycan Prezidentinin köməkçisinin müsahibədə səsləndirdiyi "Ermənistanın hərbiləşdirilməsinin məqsədi nədir?" sualının ritorik olduğuna diqqəti çəkdi: "Həqiqətən Ermənistan Paşinyanın söylədiyi kimi, sülhə və regional əməkdaşlığa can atırsa, ABŞ və Fransanın silahlı qüvvələrinin niyə ölkəsində cəmləşməsinə şərait yaradır? Rusiyanın Ermənistanda hərbi bazasının çıxarılması nə qədər aktualdırsa, "monitorinq" adı ilə ABŞ və Fransa hərbi qüvvələrinin Cənubi Qafqaza gətirilməsi siyasətindən imtina bölgə üçün bir o qədər əhəmiyyətlidir. Avropa Sülh Fondu Ukraynaya dəstək məqsədilə təsis edilmişdi. Ancaq bu fond hazırda Ermənistan vasitəsilə Cənubi Qafqazda hərbi mövcudluğunu gücləndirməyə çalışır. Paşinyanın bu siyasəti nə sülhə, nə də regional əməkdaşlığa xidmət edir, İrəvan sadəcə olaraq, "sahibini" dəyişməyə çalışır".

***

Aydın məsələdir ki, Ermənistanı hərbiləşdirmək və bununla hay cəmiyyətində revanşizmə təkan verməklə geosiyasi səhvə yol verən "kollektiv Qərb"in bölgədə özəl maraqları var. Özlərini ermənilərin təəssübkeşi kimi qələmə verən bu düşərgə nə iki ölkə arasında sülhün tezliklə əldə olunmasında, nə də sərhədlərin müəyyənləşdirilməsində maraqlıdır. "Nə hərb – nə sülh" vəziyyətinin davam etməsi, bölgədə qeyri–sabitliyin ortadan qalxmaması onlar üçün strateji əhəmiyyət kəsb edir.

Hazırki mərhələdə qonşularına qarşı ərazi iddialarından əl çəkmək istəməyən Ermənistanın hərbi bloklara qoşulmasının onun üçün hansı fəsadlara səbəb ola biləcəyi barədə XQ-nin sualını cavablandıran **politoloq Yeganə Hacıyevanın sözlərinə görə,** dörd il əvvələdək Ermənistanın işğalçı dövlət kimi tanınırdı və o, kənar dəstəyin sayəsində tarixində yalnız bir dəfə qismən dövlətçilyə malik olub: "Bu da bölgədə



qonşunun torpaqlarını işğal etməsi nəticəsində baş verib. Ermənistan cəmiyyətinin daxilindəki daşnak-revanşist, etnik-ideoloji qruplar indi qonşu ölkələrə qarşı ərazi iddialarından əl çəkməyiblər. Bu, sadəcə, Azərbaycana qarşı deyil, eyni zamanda, Türkiyəyə və Gürcüstana qarşı avantürist siyasətində özünü göstərir.

"Kollektiv Qərb"in dəstəyi ilə bu gün hərbi cəhətdən güclənməyə çalışan Ermənistanın bundan əvvəlki işğalın nəticələrinin ödəmədiyi halda belə utopik iddialarla çıxış etməsi bütün bölgədə sabitliyi pozur. 30 il ərzində 1 milyona yaxın Azərbaycan vətəndaşını bütün konstitusion hüquqlardan məhrum edən bu dövlət törətdiyi digər cinayətlərə görə də mütləq cavab verməlidir. Bu mənada ermənilərin üzərinə Azərbaycanın iqtisadiyyatına, ekologiyasına, mədəni irsinə vurduğu ciddi ziyanlara görə də məsuliyyət düşür.

İndi bu məsuliyyətdən boyun qaçırmağı bir yana qalsın, Ermənistan yeni hərbi ittifaqlara daxil olur. Ortaya məntiqli sual çıxır: cəmi dörd ildir ki, Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Bu, o deməkdir ki, İrəvan son dörd ildə işğalçılıq siyasətindən əl çəkməyə məcbur edilib. Mövcud vəziyyətdə müəyyən qüvvələr Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda nəyə nail olmağa çalışırlar? Avropa İttifaqına üzv bəzi dövlətlərin, ABŞ və digərlərinin işğalçı Ermənistanı hansı niyyətlə silahlandırdığı bizə məlumdur. Amma Kaliforniyada yaşayan erməninin Azərbaycandan torpaq istəməsi hansı hüquqi məntiqlə izah oluna bilər?".

Avropa İttifaqının Ermənistanda yerləşdirdiyi mülki müşahidə missiyasının həyata keçirdiyi şübhəli fəaliyyəti və onun bölgədə sabitliyə mənfi təsiri məsələsinə toxunan politoloq daha sonra bunları söylədi: "Azərbaycan tərəfi həmin missiyanın şərti sərhəd zolağında qısa müddətə yerləşməsinə razılığını vermişdi. Mülki missiyanın mandatı 2022-ci ilə qədər idi və onun missionerləri apardıqları monitorinqlərlə, guya, bölgədə sabit sülhün təmin edilməsinə töhfə verməli idilər. Amma sonrakı müddətdə onları sayı artırıldı və məlum oldu ki, missiyanın mandatının kvalifikasiyası tamamilə pozulub. Əllərində silah sərhədboyu ərazilərdə naməlum araşdırma aparan bu missiya, əslində, hərbi amilə çevrilib. İlkin məqsədlərindən fərqli olaraq, bu missiya başda Fransa olmaqla bölgəyə hərbi kontingent yeridiblər. Bu, artıq fərqli "status-kvo"nu formalaşdırır. Aİ bəzi üzv ölkələrin etimadından sui-istifadə edərək, faktiki olaraq, Azərbaycanı aldatmaqla məşğuldur. Misal üçün, Almaniyanın bu missiyada iştirakı üçün irəli sürdüyü şərt bölgədə yalnız sülhə, sabitliyə xidmət etməsi idi. Amma indi biz tamam fərqli mənzərəni müşahidə edirik".

***

Bəli, fakt ondan ibarətdir ki, işğalçı Ermənistan son 30 ildə Azərbaycanla heç vaxt sərhəd qurmayıb. Bu azmış kimi, 1991-ci il Alma-Ata Bəyannaməsi üzrə götürdüyü öhdəliklərə saymazlıq göstərib, ərazilərimizi işğal edib, bizim torpaqlarda bizə qarşı istehkamlar qurub. İndi Fransa, ABŞ, Niderland kimi haypərəst ölkələr Azərbaycanı Ermənistanın ərazilərini işğalda ittiham etməkdənsə, sərhədlərin müəyyənləşdirilməsi məsələsini gündəmə gətirsinlər. İşğala məruz qalanla işğalçını dəyişik salmasınlar. Prezidentin köməkçisinin qeyd etdiyi kimi, işğala, etnik təmizləməyə, əmlaklarının dağıdılmasına məruz qalan azərbaycanlılar olub: "Otuz ildən sonra doğma yurdlarına qayıdan azərbaycanlı məcburi köçkünlər üçün evlərini, qəbiristanlıqlarını dağıdılmış, ərazini minalanmış vəziyyətdə görmək asan deyil".

H.Hacıyevin İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində yadda qalan digər vacib məqam Birinci Qarabağ müharibəsində dörd min azərbaycanlının itkin düşdüyü və onların taleyindən bugünədək səs-sorağın olmadığının ardınca dediyi bu fikirlər idi: "Ancaq biz daha çox inam qazanmaq və hələ də açıq olan çoxsaylı yaraların öhdəsindən gəlmək üçün gələcəyə baxmalıyıq".

Burada söhbət bölgənin bütün ölkələrinin və xalqlarının dinc və xoşbəxt gələcəyindən gedir...

**İmran BƏDİRXANLI**
**XQ**

**"Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması Qaydası"na əlavə**

# Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması

# CƏDVƏLİ

| Sıra №-si | Dövlət qulluğunda ixtisas dərəcələri | Hərbi rütbələr | Prokurorluq orqanlarında rütbələr | Ədliyyə orqanlarında xüsusi rütbələr | Fövqəladə hallar orqanlarında xüsusi rütbələr | Miqrasiya orqanlarında xüsusi rütbələr | Daxili işlər orqanlarında xüsusi rütbələr | Gömrük orqanlarında xüsusi rütbələr | Vergi orqanlarında xüsusi rütbələr | Diplomatik rütbələr |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 0 | 11 |
| **1. Ali rütbələr və ixtisas dərəcələri** | | | | | | | | | | |
| 11 | həqiqi dövlət müşaviri | ordu generalı | həqiqi dövlət ədliyyə müşaviri | həqiqi dövlət ədliyyə müşaviri | - | - | - | həqiqi dövlət gömrük xidməti müşaviri | həqiqi dövlət vergi xidməti müşaviri | - |
| 12 | 1-ci dərəcə dövlət müşaviri | general-polkovnik, admiral | I dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-polkovniki | I dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-polkovniki | - | I dərəcəli dövlət miqrasiya xidməti müşaviri | polis general-polkovniki | gömrük xidməti general-polkovniki | 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri | fövqəladə və səlahiyyətli səfir |
| 13 | 2-ci dərəcə dövlət müşaviri | general-leytenant, vitse-admiral, tibb xidməti general-leytenantı, ədliyyə general-leytenantı | II dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-leytenantı | II dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-leytenantı | daxili xidmət general-leytenantı, tibb xidməti general-leytenantı | II dərəcəli dövlət miqrasiya xidməti müşaviri | polis general-leytenantı | gömrük xidməti general-leytenantı | 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri | birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi |
| 14 | 3-cü dərəcə dövlət müşaviri | general-mayor, kontr-admiral, tibb xidməti general-mayoru, ədliyyə general-mayoru | III dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-mayoru | III dərəcəli dövlət ədliyyə müşaviri, ədliyyə general-mayoru, tibb xidməti general-mayoru | daxili xidmət general-mayoru, tibb xidməti general-mayoru | III dərəcəli dövlət miqrasiya xidməti müşaviri | polis general-mayoru, tibb xidməti general-mayoru | gömrük xidməti general-mayoru, tibb xidməti general-mayoru | 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri | ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi |
| **2. Digər rütbələr və ixtisas dərəcələri** | | | | | | | | | | |
| 21 | dövlət qulluğunun baş müşaviri | polkovnik, 1-ci dərəcəli kapitan, tibb xidməti polkovniki, ədliyyə polkovniki | baş ədliyyə müşaviri, ədliyyə polkovniki | baş ədliyyə müşaviri, ədliyyə polkovniki, tibb xidməti polkovniki | daxili xidmət polkovniki, tibb xidməti polkovnik | baş miqrasiya xidməti müşaviri | polis polkovniki, tibb xidməti polkovniki | gömrük xidməti polkovniki, tibb xidməti polkovniki | baş vergi xidməti müşaviri, baş ədliyyə müşaviri | birinci dərəcəli müşavir |
| 22 | dövlət qulluğunun müşaviri | polkovnik-leytenant, 2-ci dərəcəli kapitan, tibb xidməti polkovnik-leytenantı, ədliyyə polkovnik-leytenantı | ədliyyə müşaviri, ədliyyə polkovnik-leytenantı | ədliyyə müşaviri, ədliyyə polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | daxili xidmət polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | miqrasiya xidməti müşaviri | polis polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | gömrük xidməti polkovnik-leytenantı, tibb xidməti polkovnik-leytenantı | vergi xidməti müşaviri, ədliyyə müşaviri | ikinci dərəcəli müşavir |
| 23 | dövlət qulluğunun kiçik müşaviri | mayor, 3-cü dərəcəli kapitan, tibb xidməti mayoru, ədliyyə mayoru | kiçik ədliyyə müşaviri, ədliyyə mayoru | kiçik ədliyyə müşaviri, ədliyyə mayoru, tibb xidməti mayoru | daxili xidmət mayoru, tibb xidməti mayoru | kiçik miqrasiya xidməti müşaviri | polis mayoru, tibb xidməti mayoru | gömrük xidməti mayoru, tibb xidməti mayoru | kiçik vergi xidməti müşaviri, kiçik ədliyyə müşaviri | birinci dərəcəli birinci katib |
| 24 | 1-ci dərəcə dövlət qulluqçusu | kapitan, kapitan leytenant, tibb xidməti kapitanı, ədliyyə kapitanı | I dərəcəli hüquqşünas, ədliyyə kapitanı | I dərəcəli ədliyyə qulluqçusu, ədliyyə kapitanı, tibb xidməti kapitanı | daxili xidmət kapitanı, tibb xidməti kapitanı | I dərəcəli miqrasiya xidməti qulluqçusu | polis kapitanı, tibb xidməti kapitanı | gömrük xidməti kapitanı, tibb xidməti kapitanı | 1-ci dərəcəli müfəttiş, 1-ci dərəcəli hüquqşünas | ikinci dərəcəli birinci katib |
| 25 | 2-ci dərəcə dövlət qulluqçusu | baş leytenant, tibb xidməti baş leytenantı, ədliyyə baş leytenantı | II dərəcəli hüquqşünas, ədliyyə baş leytenantı | II dərəcəli ədliyyə qulluqçusu, ədliyyə baş leytenantı, tibb xidməti baş leytenantı | daxili xidmət baş leytenantı, tibb xidməti baş leytenantı | II dərəcəli miqrasiya xidməti qulluqçusu | polis baş leytenantı, tibb xidməti baş leytenantı | gömrük xidməti baş leytenantı, tibb xidməti baş leytenantı | 2-ci dərəcəli müfəttiş, 2-ci dərəcəli hüquqşünas | birinci dərəcəli ikinci katib, ikinci dərəcəli ikinci katib |
| 26 | 3-cü dərəcə dövlət qulluqçusu | leytenant, tibb xidməti leytenantı, ədliyyə leytenantı | III dərəcəli hüquqşünas, ədliyyə leytenantı | III dərəcəli ədliyyə qulluqçusu, ədliyyə leytenantı, tibb xidməti leytenantı | daxili xidmət leytenantı, tibb xidməti leytenantı | III dərəcəli miqrasiya xidməti qulluqçusu | polis leytenantı, tibb xidməti leytenantı | gömrük xidməti leytenantı, tibb xidməti leytenantı | 3-cü dərəcəli müfəttiş, 3-cü dərəcəli hüquqşünas | üçüncü katib |
| 27 | kiçik dövlət qulluqçusu | kiçik leytenant, tibb xidməti kiçik leytenantı, ədliyyə kiçik leytenantı | - | ədliyyə kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | daxili xidmət kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | kiçik miqrasiya xidməti qulluqçusu | polis kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | gömrük xidməti kiçik leytenantı, tibb xidməti kiçik leytenantı | - | attaşe |
| 28 | dövlət qulluğunun baş referenti | baş gizir, baş miçman | - | ədliyyə baş giziri, tibb xidməti baş giziri | daxili xidmət baş giziri, tibb xidməti baş giziri | - | - | gömrük xidməti baş giziri, tibb xidməti baş giziri | - | - |
| 29 | dövlət qulluğunun böyük referenti | gizir, miçman | - | ədliyyə giziri, tibb xidməti giziri | daxili xidmət giziri, tibb xidməti giziri | - | - | gömrük xidməti giziri, tibb xidməti giziri | - | - |
| 20 | dövlət qulluğunun 1-ci dərəcə referenti | kiçik gizir, kiçik miçman | - | ədliyyə kiçik giziri, tibb xidməti kiçik giziri | daxili xidmət kiçik giziri, tibb xidməti kiçik giziri | - | - | - | - | - |
| 21 1 | dövlət qulluğunun 2-ci dərəcə referenti | baş çavuş | - | ədliyyə baş çavuşu, tibb xidməti baş çavuşu | daxili xidmət baş çavuşu, tibb xidməti baş çavuşu | baş miqrasiya xidməti çavuşu | polis baş serjantı, tibb xidməti baş serjantı | - | - | - |
| 22 | dövlət qulluğunun 3-cü dərəcə referenti | çavuş | - | ədliyyə çavuşu, tibb xidməti çavuşu | daxili xidmət çavuşu, tibb xidməti çavuşu | miqrasiya xidməti çavuşu | polis serjantı, tibb xidməti serjantı | - | - | - |
| 23 | dövlət qulluğunun kiçik referenti | kiçik çavuş | - | ədliyyə kiçik çavuşu, tibb xidməti kiçik çavuşu | daxili xidmət kiçik çavuşu, tibb xidməti kiçik çavuşu | kiçik miqrasiya xidməti çavuşu | polis kiçik serjantı, tibb xidməti kiçik serjantı | - | - | - |

***Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması

# QAYDASI

**1. Ümumi müddəa**

Bu Qayda "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və xüsusi, hərbi, diplomatik rütbələrin (bundan sonra − rütbə) və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması ilə bağlı hüquqi və təşkilati məsələləri tənzimləyir.

**2. Rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması**

2.1. Rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması bu Qaydanın Əlavəsinə uyğun olaraq aparılır.

2.2. Rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması aşağıdakı tələblər nəzərə alınmaqla həyata keçirilir:

2.2.1. dövlət qulluqçusu dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu ixtisas dərəcəsi, habelə həmin ixtisas dərəcəsində qulluq müddəti nəzərə alınır;

2.2.2. dövlət orqanında işləmiş və ixtisas dərəcəsinə malik olan şəxs sonradan dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu ixtisas dərəcəsi, habelə həmin ixtisas dərəcəsində qulluq müddəti nəzərə alınır;

2.2.3. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrdə qulluq (xidmət) keçən və dövlət qulluğu vəzifəsinə qəbul edilən şəxsə ixtisas dərəcəsi verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır;

2.2.4. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçmiş və rütbəyə malik olan şəxs sonradan dövlət qulluğu vəzifəsinə qəbul edildikdə ona ixtisas dərəcəsi verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır;

2.2.5. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrdə qulluq (xidmət) keçən şəxs dövlət qulluğunun xüsusi növünə aid digər dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır;

2.2.6. dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrdə qulluq (xidmət) keçmiş şəxs sonradan dövlət qulluğunun xüsusi növünə aid digər dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edildikdə ona rütbə verilərkən malik olduğu rütbə, habelə həmin rütbədə qulluq (xidmət) müddəti nəzərə alınır.

2.3. Dövlət qulluqçusu və ya əvvəllər dövlət orqanında işləmiş və ixtisas dərəcəsinə malik olan şəxs dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edilərkən, habelə dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxs dövlət qulluğunun xüsusi növünə aid digər dövlət orqanında rütbə nəzərdə tutulan vəzifələrə qulluğa (xidmətə) qəbul edilərkən ona təyin olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddi nəzərə alınmaqla rütbə verilir.

2.4. Dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxs dövlət qulluğuna qəbul edilərkən həmin şəxsə təyin olunduğu vəzifənin təsnifatı üzrə müəyyən edilmiş ixtisas dərəcəsi nəzərə alınmaqla ixtisas dərəcəsi verilir.

2.5. Dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxsin malik olduğu rütbə onun dövlət qulluğunda təyin olunduğu vəzifənin təsnifatı üzrə nəzərdə tutulmuş ixtisas dərəcələrindən yuxarıdırsa, ona həmin təsnifat üzrə müəyyən edilmiş ən yüksək ixtisas dərəcəsi verilir.

2.6. Dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxsin malik olduğu rütbə onun dövlət qulluğunda təyin olunduğu vəzifənin təsnifatı üzrə nəzərdə tutulmuş ixtisas dərəcələrindən aşağıdırsa, ona həmin təsnifat üzrə müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir.

2.7. Dövlət qulluqçusu və ya əvvəllər dövlət orqanında işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsi onun dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında xidmətə (qulluğa) qəbul olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən yuxarıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən yüksək rütbə verilir.

2.8. Dövlət qulluqçusu və ya əvvəllər dövlət orqanında işləmiş şəxsin malik olduğu ixtisas dərəcəsi onun dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında xidmətə (qulluğa) qəbul olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən aşağıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən kiçik rütbə verilir.

2.9. Dövlət qulluğunun xüsusi növünə aid bir dövlət orqanından digərinə qulluğa (xidmətə) qəbul edilərkən şəxsin malik olduğu rütbə onun təyin olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən yuxarıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən yüksək rütbə verilir.

2.10. Dövlət qulluğunun xüsusi növünə aid bir dövlət orqanından digərinə qulluğa (xidmətə) qəbul edilərkən şəxsin malik olduğu rütbə onun təyin olunduğu vəzifə üzrə müəyyən edilmiş rütbə həddindən aşağıdırsa, ona həmin vəzifə üzrə müəyyən edilmiş ən kiçik rütbə verilir.

**3. Yekun müddəalar**

3.1. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü və 32-ci bəndlərinə uyğun olaraq verilmiş və bu Qaydanın Əlavəsinin 1.1−1.4-cü bəndlərində nəzərdə tutulmuş rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması məsələsinə müvafiq dövlət orqanı rəhbərinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən baxılır.

3.2. Bu Qaydanın Əlavəsinin 2.1 − 2.7-ci bəndlərində nəzərdə tutulmuş rütbə və ixtisas dərəcələrinin hərbi rütbələrə uyğunlaşdırılması Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 46-cı maddəsinə əsasən keçirilən attestasiyanın nəticəsinə uyğun olaraq aparılır.

3.3. Səfərbərlik zamanı hərbi xidmətə çağırılan xüsusi, diplomatik rütbəyə və ixtisas dərəcəsinə malik olan şəxsə münasibətdə xüsusi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin hərbi rütbələrə uyğunlaşdırılması aparılmır.

3.4. Həqiqi hərbi xidmətdə saxlanılmaqla dövlət orqanına ezam olunaraq dövlət qulluğu vəzifəsinə təyin edilən hərbi qulluqçulara münasibətdə hərbi rütbələrin ixtisas dərəcələrinə uyğunlaşdırılması aparılmır.

3.5. Bu Qaydanın Əlavəsinin 2.1 − 2.13-cü bəndlərində nəzərdə tutulan rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması müvafiq dövlət orqanının rəhbəri tərəfindən həyata keçirilir.

3.6. İxtisas dərəcələrinin və rütbələrin verilməsini təsdiq edən sənədlərə rütbənin və ixtisas dərəcəsinin verilməsi barədə əmrlərdən (sərəncamlardan və s.) çıxarışlar, əmək kitabçası, hərbi bilet və ya digər sənədlər aiddir.

3.7. Bu Qaydanın 3.5-ci bəndində nəzərdə tutulan halda rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması ilə əlaqədar mübahisə yarandıqda, müvafiq dövlət orqanı və ya şəxs bu barədə Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasına və məhkəməyə müraciət edə bilər.

3.8. Bu Qaydaya uyğun olaraq barəsində rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı uyğunlaşdırılması aparılmış şəxs sonradan daha yüksək vəzifəyə (yuxarı təsnifat dövlət qulluğu vəzifəsinə və ya rütbə həddi yuxarı olan vəzifəyə) təyin olunduqda, həmin yüksək vəzifəyə əsasən yenidən uyğunlaşdırma aparılmasına yol verilir.

3.9. Bu Qayda qüvvəyə minənədək dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifədə qulluq (xidmət) keçmiş şəxs dövlət qulluğu vəzifəsinə və ya dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifəyə qəbul edilmişdirsə və ya dövlət qulluğunda işləmiş şəxs dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında rütbə nəzərdə tutulan vəzifəyə qəbul edilmişdirsə, həmin şəxslərin təyin olunduqları vəzifə üzrə rütbə həddi (vəzifə təsnifatı üzrə nəzərdə tutulmuş ixtisas dərəcələri) nəzərə alınmaqla, onların malik olduğu rütbə və ixtisas dərəcəsinin qarşılıqlı uyğunlaşdırılmasının aparılmasına yol verilir.

# Ceyhun Bayramov Nyu-Yorkda

**Sentyabrın 27-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına sədrliyimiz çərçivəsində təşkil olunan İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinə həsr olunmuş qeyri-rəsmi nazirlər dialoqunda iştirak və çıxış edib.**




XİN-dən redaksiyamıza bildirilib ki, nazirlər dialoqunda Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil də iştirak və çıxış ediblər. Müxtəlif ölkələrin yüksək səviyyəli nümayəndələrinin, COP29 üzrə danışıqçılar qrupları üzvlərinin də iştirak etdikləri dialoqda Ceyhun Bayramov Azərbaycanın COP29 Sədrliyi fəaliyyəti, prioritet və təşəbbüslərindən, habelə İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinin razılaşdırıması istiqamətində aparılan danışıqlar prosesindən ətraflı bəhs edib.

İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinin razılaşdırılmasının prosesin ən vacib elementlərindən biri olduğunu qeyd edən nazir Ceyhun Bayramov bu istiqamətdə danışıqlarda iştirak edən bütün tərəfləri konstruktiv mövqe sərgiləyərək bəşəriyyətin qarşısında duran iqlim dəyişikliyi təhdidi ilə mübarizə istiqamətində səylərin səfərbər edilməsinə çağırış edib.

COP29 Sədrliyimizin 14 əsas təşəbbüs və bəyanla müəyyən olunmuş məqsədləri dəstəkləməklə yanaşı, onlara çatmaq üçün müvafiq alətlərin də təmin olunmasına fokuslandığı bildirilib. İqlimə əsaslanan inkişafın dəstəklənməsi yanaşmamızın, xüsusilə ən həssas təbəqələri nəzərə aldığı vurğulanıb.

Nazirlər dialoqu İqlim Maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi üzrə müzakirələrin aparılması ilə davam etdirilib.

*

Həmin gün Xarici İşlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində BMT Baş katibinin müavini, az inkişaf etmiş, dənizə çıxışı olmayan və kiçik ada ölkələri üzrə ali nümayəndəsi Rabab Fatima, Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Əl Səud, Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok, Bosniya və Herseqovinanın xarici işlər naziri Elmedin Konakoviç, Mali Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdoulaye Diop, Niderland Krallığının xarici işlər naziri Kasper Veldkamp ilə görüşlər keçirib.

Söhbətlərdə ikitərəfli münasibətləri inkişaf etdirk lə bağlı fikir mübadiləsi aparılıb, qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

***XQ***

# Bakıda BPA İcraiyyə Komitəsinin 58-ci iclası

**Beynəlxalq Prokurorlar Assosiasiyasının İllik Konfransı və Ümumi Yığıncağı sentyabrın 29-dan oktyabrın 2-dək paytaxt Bakı şəhərində keçiriləcək. Dünən Heydər Əliyev Mərkəzində Assosiasiyanın rəhbər qurumu olan İcraiyyə Komitəsinin 58-ci iclası olub.**



Açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkəmizin prokurorluq orqanlarında davam etdirilən islahatlar, habelə Azərbaycan prokurorluğunun BPA-nın işinə verdiyi töhfə haqda məlumat verib.

Beynəlxalq Prokurorlar Assosiasiyasının hər ilin sentyabr ayında İllik Konfransı və Ümumi Yığıncağının ölkəmizdə keçirilməsinin mühüm tarixi nailiyyət olduğunu vurğulayan Baş prokuror ölkəmizin Assosiasiyanın işinə gələcəkdə də önəmli töhfələr verəcəyini qeyd edib.

İclasda BPA-nın gələcək strategiyası və fəaliyyəti, beynəlxalq əlaqələrinin daha da inkişaf etdirilməsi və digər mühüm məsələlər müzakirə olunub, bir sıra mühüm xüsusatlar, o cümlədən təşkilatın rəhbər vəzifələrinə seçkilərin keçirilməsi, yeni üzvlərin qəbulu, hesabatların dinlənilməsi ilə bağlı tövsiyələr, Assosiasiyanın növbəti illik iclas və konfranslarının keçirilməsi və digər məsələlərə baxılıb.

Yekunda Beynəlxalq Prokurorlar Assosiasiyasının 30-cu İllik Konfransı və Ümumi Yığıncağının Sinqapurda, 31-ci İllik Konfransı və Ümumi Yığıncağının isə Səudiyyə Ərəbistanı Krallığında keçirilməsi barədə ilkin qərar qəbul olunub.

***XQ***

# Aİ Missiyasının "Ermənistanı Azərbaycandan qorumaq" iddiası əsassızdır



**"Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə mətbuat katibi Peter Stanonun Ermənistanın "Armenpress" xəbər agentliyinin sualına cavabında Avropa İttifaqının Ermənistandakı Missiyasının mandatı və Ermənistanın militarizasiyası barədə səsləndirdiyi fikirlər tamamilə əsassız və qəbuledilməzdir".**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə mətbuat katibi Peter Stanonun iddialarına dair şərhində bildirib. Vurğulanıb ki, Avropa İttifaqı rəsmisinin Azərbaycan Respublikası Prezidentinin fikirlərini yanlış və açıq qərəzlə şərh etməsini qətiyyətlə rədd edirik: "Aİ Missiyasının rəhbəri dəfələrlə Ermənistan tərəfinin yalan və böhtan dolu iddialarını əsas tutaraq, guya, Azərbaycanın hər hansı bir hücuma hazırlaşdığı barədə fikirlər səsləndirdiyi, Aİ Missiyasının əsas vəzifəsinin "Ermənistanı Azərbaycandan qorumaq" kimi təqdim edildiyi, bununla normallaşma prosesinə xələl gətirdiyi hər kəsə məlumdur. Bu mühitdə, Ermənistan tərəfi Aİ Missiyasının mövcudluğundan sui-istifadə etməkdədir".

Bildirilib ki, dünyada öz işğalçılıq siyasəti, Azərbaycana qarşı 30 ilə yaxın hərbi təcavüzü ilə tanınan Ermənistanın hərbiləşdirilməsinə yönəlmiş və daha böyük hərbi təchizatlara (öldürücü və hücum tipli silah növləri daxil olmaqla) dair yeni vədlərin də yer aldığı kampaniya Azərbaycanın milli təhlükəsizliyinə təhdiddir. Ayxan Hacızadənin sözlərinə görə, bu prosesə Avropa İttifaqı mətbuat katibinin bəraət qazandırması narahatlıq mənbəyidir.

***XQ***

# Qərbi Azərbaycan İcması ermənipərəst açıqlamaları pisləyib

**Özünü Fransanın Ermənistandakı səfiri kimi qələmə verən şəxs gülünc açıqlamalarını davam etdirir. O, tamam aidiyyətsiz bir məsələni belə öz aləmində Azərbaycana hücum etmək imkanı kimi görür, diplomat kimi deyil, daşnak, revanşist erməni kilsəsinin təmsilçisi kimi danışır. Qərbi Azərbaycan İcması bu açıqlamanınn davamında bildirib:**

"Üzdəniraq səfir Ermənistanın baş nazirinin BMT Baş Assambleyasında çıxışından sonra belə açıqlamalar verməklə təkcə özünü yox, həm də son illərdə bir-bir ölkələrdən qovularaq biabır olmuş Fransanı daha da gözdən salır. Fransa diplomatiyasının Taleyrandan Ermənistandakı səfir səviyyəsinə düşməsi acınacaqlı durumdur.

*

Qərbi Azərbaycan İcması nının digər bəyanatında Avropa İttifaqının rəsmi nümayəndəsi Peter Stanonun Ermənistanın silahlandırılmasına və Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyətinə haqq qazandıran qeyri-konstruktiv açıqlaması qətiyyətlə pislənilir.

Qeyd olunub ki, sərhəd məsələlərini əhatə edən bir missiya olan EUMA-nın digər sərhəd ölkəsi ilə koordinasiya edilmədən genişləndirilməsi və mandatının uzadılması qeyri-dost addımıdır: "Buna görə də biz Aİ-dən geosiyasi ayırıcı xətləri regiona gətirməməyi, Ermənistanın militarizmini gücləndirməyə son qoymasını və əvəzində Ermənistanın təcavüzünün dağıdıcı nəticələrinin aradan qaldırılması üçün Azərbaycana yardım göstərməsini tələb edirik".

***XQ***

**İnformasiya savaşı**

**III yazı**

**Azərbaycan qlobal səviyyəli dezinformasiyalardan zərər çəkən dövlətlər sırasındadır. Ölkənin strateji mövqeyi, qoşulduğu lokal və qlobal layihələr, həmçinin Ermənistanla münaqişə vəziyyətində olması onu total xarakterli dezinformasiya axınının hədəfinə çevirib.**

# Azərbaycan əleyhinə dezinformasiya yayanlar kimlərdir?



***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

2024-cü ilin iyul ayında keçirilən II Şuşa Qlobal Media Forumu zamanı qeyd olundu ki, Azərbaycan öz müstəqilliyini elan etdiyi tarixdən başlayaraq bu günə qədər sistemli şəkildə dezinformasiya axınına məruz qalır. Ölkəmiz haqqında saxta xəbərlər müxtəlif mənbələr tərəfindən fərqli məqsədlər üçün yaradılaraq yayılır. Prezident İlham Əliyev həmin forumdakı çıxışında bu mənbələrdən bir qisminin ünvanını göstərdi. O, dezinformasiyaların böyük bir qisminin Ermənistandan və ermənipərəst siyasətçilərdən qaynaqlandığını vurğuladı: "Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana hücum edirlər, Azərbaycan haqqında yanlış narrativlər yayırlar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirlər".

Ermənistan tərəfindən yaradılan dezinformasiyalar 2020-ci ildə 44 günlük müharibə dövründə daha qabarıq şəkildə üzə çıxıb. 2022-2023-cü illərdə "Laçın yolu" kampaniyası fonunda davam edib. 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərinin keçirildiyi dönəmdə isə pik həddə çatıb. Bu gün də eyni formada davam etdirilir.

44 günlük müharibə dövründə Azərbaycanın, guya, "suriyalı terrorçular"dan faydalanması barədə saxta xəbərlər yaydılar. Bu feyk xəbərlər Qərb mediasının səhifələrində əks olundu. Hətta, Avropanın, Rusiyanın, İranın siyasi çevrələrinin dillərindən də səsləndirildi. Fransa prezidenti Emmanuel Makron "300-dən çox suriyalının Türkiyə üzərindən keçməklə Dağlıq Qarabağa – münaqişə bölgəsinə göndərildiyini" bəyan etdi.

Düzdür, bu iddialar öz təsdiqini tapmadı. Azərbaycanın təkidli tələblərinə rəğmən, heç bir fakt, heç bir sübut təqdim edə bilmədilər. Amma saxta xəbəri tirajlamaqdan da əl çəkmədilər. 2020-ci ildə gerçəkləşdirilən 44 günlük Vətən müharibəsi əlavə bir faktı da ortaya çıxardı. Bəlli oldu ki, Azərbaycana qarşı geniş miqyaslı dezinformasiyalar təkcə Ermənistan və ermənipərəst Qərb siyasətçiləri tərəfindən deyil, həm də Cənubi Qafqazda maraq savaşı aparan dövlətlər tərəfindən istehsal edilərək yayılır.

Prezident İlham Əliyev II Şuşa Qlobal Media Forumunda vurğuladı ki, son illərdə Cənubi Qafqazda tarixi transformasiya, geosiyasi dəyişikliklər baş verir: "Regionda ənənəvi ittifaqlar zəifləyir, yeni əməkdaşlıq formatları meydana gəlir. Bu tarixi gedişata müdaxilə etmək, prosesi öz maraqlarına uyğun şəkildə dəyişmək istəyən güc mərkəzləri vardır". Regiona yönəlik ekspansiya siyasətini gücləndirən mərkəzlər müxtəlif üsullardan istifadə edərək hadisələrin təbii gedişatını dəyişmək istəyirlər. Bu üsul və vasitələrin sırasında dezinformasiyalar yaymaq, Cənubi Qafqazın lider dövləti olan Azərbaycanı hədəfə çevirib saxta xəbərlərlə gözdən salmaq metodu da yer tutur.

Problem ondadır ki, Qərbin "Cənubi Qafqazı fəth etmək" planı Ermənistanın yenidən dirçəldilməsi konsepsiyasının üzərində qurulub. Onların Azərbaycanı zəiflətmək, Ermənistana qarşı təsir imkanlarını azaltmaq, erməniləri Qarabağa qaytarmaqla həmin ərazilərdə Ermənistanın nəzarətinə imkan verən mexanizmlər qurmaq niyyətləri var. Bu niyyətlərini gerçəkləşdirməklə, Azərbaycanı Zəngəzur dəhlizi, Qərbi Azərbaycan konsepsiyasından imtinaya məcbur etmək istəyirlər. Planın davamında Türkiyə–Ermənistan sərhədlərinin açılması məsələsində Bakının mövqeyini "neytrallaşdırmaq" gözləntiləri də yer alır. Öz planlarını gerçəkləşdirmək üçün dezinformasiyalar yayır, Azərbaycanda daxili ictimai rəyi çaşdırmağa səy göstərir, o cümlədən, beynəlxalq ictimai rəydə ölkəmizi gözdən salmağa çalışırlar.

Bu kontekstdə yanaşsaq, 2023-cü ildən etibarən ölkəmizə qarşı yönəlmiş dezinformasiyaların, feyk xəbərlərin kəmiyyəti daha da çoxalıb. Azərbaycanın 2023-cü ilin sentyabr ayında antiterror tədbirləri keçirməsi, nəticədə öz suverenliyini tam bərpa etməsi xarici KİV-lər tərəfindən fərqli kontekstdə, yanlış formada təqdim edilir. Ölkəmizi Qarabağ regionunda, guya, "etnik təmizləmə" prosesi həyata keçirməkdə, yaxud, Ermənistanla sülh müqaviləsi bağlamaqdan yayınmaqda ittiham edən xəbərlər yayılır. Halbuki 1990-cı illərdə Azərbaycan torpaqlarının işğal edilməsi də, 28 il müddətində işğal altında saxlanılması da, azərbaycanlıların soyqırımına uğradılması da dünyanın gözü qarşısında baş verib. Bunun əksi olaraq, Azərbaycan 44 günlük müharibə və 19–20 sentyabr antiterror tədbirləri zamanı qarşı tərəfdə mülki şəxslərə xəsarətlər yetirilməməsi üçün ciddi tədbirlər görüb. Buna rəğmən, Fransa, Almaniya, ABŞ rəsmiləri və KİV-ləri Azərbaycanı "etnik təmizləmə", "soyqırımı" və ya "məcburi deportasiya aktı" törətməkdə ittiham edən dezinformasiyalar yayırlar.

Əvvəlki məqalələrimizdə qeyd etmişdik ki, ABŞ də daxil olmaqla, aparıcı Qərb dövlətlərindəki siyasi mərkəzlər tərəfindən istehsal olunub yayılan dezinformasiyalar qlobal fəlakətlərə yol açır, bütövlükdə, sivilizasiyanı təhdid edir. Bunu ABŞ-nin özündə də görürlər. Donald Trampın "Truth" sosial şəbəkə platformasında yazdığı qeydlər bu faktı bir daha təsdiq edir. O, fəlakətlərə son qoymaq üçün verdiyi təkliflər sırasında dezinformasiya probleminə də yer ayırıb.




ABŞ, Fransa və digər Qərb dövlətlərində, o cümlədən, siyasi mərkəzlərdə hazırlanıb yayılan dezinformasiyaların bir qismi də Cənubi Qafqaza, ilk növbədə, Azərbaycana qarşı yönəlib. Xatırladaq ki, Azərbaycanın Ermənistan üzərinə hücum etməyə hazırlaşması barədə qondarma bəyanatı rəsmi müstəvidə ilk dəfə 2023-cü ilin noyabr ayında ABŞ Dövlət katibinin müavini Ceyms O'Brayn səsləndirmişdi.

Bəs "Ermənistan şəbəkəsi" tərəfindən istehsal olunan dezinformasiyalar ictimai rəyə necə ötürülür, hansı vasitələrdən istifadə olunur? Bu barədə növbəti yazımızda məlumat veriləcək.

**Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi QAYDALARI

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, Azərbaycan Respublikasının Meşə Məcəlləsinə, Azərbaycan Respublikasının Su Məcəlləsinə, "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununa və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlara uyğun olaraq hazırlanmışdır və torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi mexanizmini müəyyən edir.

1.2. Torpaq sahəsinin kateqoriyasına və məqsədli təyinatına dair məlumatlar dövlət torpaq kadastrına daxil edilir və daşınmaz əmlakın dövlət reyestrinə, torpaqların elektron kadastr uçotu informasiya sisteminə (bundan sonra – TEKUİS), "Elektron kənd təsərrüfatı" informasiya sisteminə (bundan sonra – EKTİS), habelə rəqəmsal və kağız üzərində kadastr xəritələrinə, ərazi planlaşdırılması sənədlərinə daxil edilməsi üçün aidiyyəti üzrə təqdim olunur.

1.3. Torpaqların kateqoriyalara aid edilməsi, bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatı Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 9-cu, 10-cu və 12–33-cü maddələri nəzərə alınmaqla müəyyən edilir.

1.4. Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin (bundan sonra – Nazirlər Kabineti) qərarı ilə həyata keçirilir.

1.5. Kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyası daxilində əkin, çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin məqsədli təyinatının bir-biri arasında dəyişdirilməsi halları istisna olmaqla, kateqoriya daxilində torpaqların məqsədli təyinatının dəyişdirilməsi Nazirlər Kabinetinin qərarı ilə həyata keçirilir.

1.6. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində torpaqların kənd təsərrüfatı təyinatlı torpaq kateqoriyasına aid edilməsi, habelə həmin kateqoriya daxilində kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə aid edilməsi və dəyişdirilməsi Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq qaydaya uyğun olaraq həyata keçirilir.

1.7. "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanına uyğun olaraq, 2025-ci il yanvarın 1-dək edilən müraciətlər əsasında istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin yerləşdiyi torpaqların kateqoriyasının dəyişdirilməsi həmin Fərmana uyğun olaraq həyata keçirilir.

1.8. Kənd təsərrüfatı yerləri xüsusi olaraq qorunur və onların qeyri-kənd təsərrüfatı məqsədilə digər kateqoriyalara keçirilməsinə Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlara uyğun olaraq bu Qaydaların tələbləri nəzərə alınmaqla yol verilir.

1.9. Akvakultura təsərrüfatlarının istifadəsində olan torpaqların kateqoriyasının dəyişdirilməsi tələb olunmur.

1.10. Kənd təsərrüfatı təyinatlı torpaq sahələrində Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü və 13-1-ci maddələrində nəzərdə tutulan tikililərin inşası məqsədləri üçün torpaq sahəsinin kateqoriyasının və məqsədli təyinatının dəyişdirilməsi tələb olunmur.

1.11. Yay və qış otlaqlarından, örüş və biçənək sahələrinə aid kənd təsərrüfatı yerlərindən daha səmərəli istifadə edilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti yarandıqda, onların məqsədli təyinatının dəyişdirilərək əkin və çoxillik əkmələrə aid edilməsinə torpaqların münbitlik göstəriciləri, əkinəyararlılıq vəziyyəti, meliorasiya və irriqasiya sistemlərinin mövcudluğu, eləcə də görüləcək işlərin iqtisadi əsaslandırılması nəzərə alınmaqla və heyvandarlığın inkişafına təsiri öyrənilməklə yol verilir.

1.12. Əkin və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin bir-biri arasında məqsədli təyinatının dəyişdirilməsi torpaq sahələrinin mülkiyyətçiləri və ya icarəçiləri, istifadəçiləri (dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə torpaq mülkiyyətçilərinin yazılı razılığı, xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə torpaq mülkiyyətçilərinin notariat qaydasında təsdiq edilmiş razılığı ilə) tərəfindən həyata keçirilir və onların müraciəti əsasında daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat aparıldığı andan başa çatır.

1.13. Torpaqların bir kateqoriyadan digərinə keçirilməsi məcburi hüquqi qüvvəyə malik baş və müfəssəl planların dəyişdirilməsi ilə bağlı olduqda, torpaq mülkiyyətçilərinin və istifadəçilərinin (dövlət orqanlarının, istifadəsində torpaq sahəsi olan dövlətə məxsus hüquqi şəxslərin) razılığı alınır.

1.14. Dövlət ehtiyacları üçün alınan torpaq sahəsi üzərində hüquqların "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlətə keçdiyi andan həmin torpağın kateqoriyası dəyişdirilmiş hesab edilir, bu barədə məlumatlar (sənədlər) aidiyyəti dövlət orqanları (qurumları) tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra – Xidmət) təqdim edildikdən sonra 2 (iki) iş günü müddətində dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

1.15. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilən torpaq sahəsində (su obyektində) elektrik stansiyasının tikintisinə və quraşdırılmasına icazə verildiyi andan həmin torpaq sahəsinin kateqoriyası və torpaq sahəsindən yol verilən istifadə növü dəyişdirilmiş hesab edilir, bu barədə məlumatlar Xidmət tərəfindən 2 (iki) iş günü müddətində dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

1.16. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sifarişçinin bina və qurğulara mülkiyyət hüquqları daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alındığı gündən süni torpaq sahəsi həmin Qanunun 6.1.3-cü maddəsində göstərilən kateqoriyaya və məqsədli təyinata aid edilmiş hesab olunur, bu barədə məlumatlar Xidmət tərəfindən 2 (iki) iş günü müddətində dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

1.17. Ehtiyat fondu torpaqlarının istifadəsinə onların bu Qaydalarla müəyyən edilmiş əsaslar üzrə müvafiq kateqoriyaya keçirilməsindən sonra yol verilir.

1.18. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 57-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq, sənaye obyektlərinin tikintisi, dəmir və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi, habelə digər qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələri, əsasən, kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan, meşə fondu torpaqlarından isə meşə bitkiləri ilə örtülü olmayan sahələrdən, yaxud meşəbitmə şəraitinə görə az yararlı və yararsız sahələrdən ayrılır.

1.19. Meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşə ilə örtülü olmayan sahələrin əkin dövriyyəsinə cəlb edilməsi zərurəti yarandıqda, həmin torpaq sahələri eyni ölçüdə kənd təsərrüfatına az yararlı və ya şərti yararsız torpaq sahələri ilə əvəzləşdirilir.

1.20. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 36-cı maddəsinin 1-ci hissəsinə uyğun olaraq, radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış, əhalinin həyatına və sağlamlığına təhlükə yarada bilən, habelə məhsul istehsalı üçün sanitariya tələblərinə, müvafiq normalara, qaydalara və normativlərə cavab verməyən torpaqlar kənd təsərrüfatı dövriyyəsindən çıxarılır və konservasiya edilməsi üçün Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara uyğun olaraq müvafiq ehtiyat fondu torpaqları (dövlət və ya bələdiyyə) kateqoriyasına keçirilir.

1.21. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 37-ci maddəsinə uyğun olaraq, ekzogen geoloji proseslərə (sürüşmə, sel, aşınma, uçqun, tökülmə, eroziya, abraziya, deflyasiya, eol, bataqlaşma, yarğan və s.) məruz qalmış torpaq sahələri texniki meliorasiya və bərpa (rekultivasiya) işləri aparılanadək, təsərrüfat fəaliyyəti dövriyyəsindən çıxarılır və prosesin miqyasından asılı olaraq müvafiq ehtiyat fondu torpaqları (dövlət və ya bələdiyyə) kateqoriyasına keçirilir.

1.22. Torpaqların kateqoriyası və məqsədli təyinatı barədə məlumatlar dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində sərəncam verilməsinə dair qərarlarda, habelə torpaq sahələri barədə bağlanılmış əqdlərdə göstərilməlidir.

**2. Torpaqların kateqoriyalara aid edilməsinin, onların bir kateqoriyadan digərinə keçirilməsinin və məqsədli təyinatının dəyişdirilməsinin əsasları, habelə bununla bağlı rəy verilməsi zamanı nəzərə alınmalı meyarlar**

2.1. Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi əsasları aşağıdakılardır:

2.1.1. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə uyğun olaraq torpağın alınmasına əsas verən dövlət ehtiyacları;

2.1.2. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bərpa olunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilən torpaq sahəsində (su obyektində) elektrik stansiyasının tikintisinə və quraşdırılmasına icazə verilməsi;

2.1.3. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq torpaq sahəsində inşa edilmiş bina və qurğulara mülkiyyət hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması;

2.1.4. sənaye obyektlərinin, zonalarının (məhəllələrinin və parklarının) və Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-1-ci maddəsi nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə istehsalı, emalı və saxlanılması üçün infrastrukturun yaradılması;

2.1.5. ehtiyat fondu torpaqlarından istifadə zərurətinin yaranması;

2.1.6. müasir texnologiyaların tətbiqi ilə aqroparkların, fermer təsərrüfatlarının və aqraryönlü digər təsərrüfatların yaradılması məqsədilə başqa kateqoriyaya aid torpaqlardan əkin dövriyyəsinə əlavə torpaqların cəlb edilməsi;

2.1.7. qoruyucu meşə zolaqlarının və yaşıllıq zonalarının salınması məqsədilə meşə fondu torpaqlarının tərkibinə əlavə torpaqların verilməsi;

2.1.8. meşə fondu torpaqlarında müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikintisi, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə əkin dövriyyəsinə əlavə torpaq sahələrinin cəlb edilməsi zərurəti olduqda;

2.1.9. bioloji müxtəlifliyin qorunub saxlanılması məqsədilə xüsusi mühafizə olunan təbiət ərazilərinin (o cümlədən milli parkların, dövlət təbiət qoruqlarının, yasaqlıqların və s.) tərkibinə əlavə torpaqların verilməsi;

2.1.10. aerokosmik tədqiqatlar aparılması məqsədilə müvafiq infrastrukturun yaradılması zərurəti olduqda;

2.1.11. ekzogen geoloji proseslərin təsirinə məruz qalmış yaşayış məntəqələrinin torpaqlarının əvəzləşdirilməsi;

2.1.12. yeni yaşayış məhəllələrinin (məntəqələrinin) salınması, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin ləğv edilməsi və ya onların inzibati ərazisinin dəyişdirilməsi, mövcud yaşayış məntəqələrinin inkişaf etdirilməsi (genişləndirilməsi) məqsədilə ərazi planlaşdırılması sənədlərinin (ümumi, baş və müfəssəl planların) və onlarda dəyişiklik olunmasının təsdiq edilməsi, həmçinin yaşayış məntəqələrinin torpaqlarına aid olmayan torpaqlarda salınmış yaşayış massivlərinin yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi zərurəti olduqda;

2.1.13. yaşayış məntəqələrinin hüdudları daxilində özəlləşdirilən müəssisə və obyektlərin, habelə fiziki və ya dövlətə məxsus olmayan hüquqi şəxslərin vəsaiti hesabına inşa edilən obyektlərin yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi barədə həmin müəssisə və obyektlərin mülkiyyətçilərinin, habelə xüsusi mülkiyyətdə olan torpaq sahələrindən iqtisadi cəhətdən daha səmərəli istifadənin təmin edilməsi ilə bağlı mülkiyyətçilərin əsaslandırılmış müraciətlərinin daxil olması;

2.1.14. tarix-mədəniyyət, təbii qoruq və sağlamlaşdırma yerlərinin yaradılması, əhalinin istirahətinin təşkili, turizmin inkişafı, idman və digər sosial obyektlərin tikintisi;

2.1.15. kənd təsərrüfatı yerlərinin radioaktiv və kimyəvi çirklənməyə məruz qalması, ekzogen geoloji proseslər nəticəsində dövriyyədən çıxarılaraq onlardan istifadə hüququna xitam verilməsi;

2.1.16. faydalı qazıntı yataqlarının istismarı ilə əlaqədar dağ-mədən işlərinin həyata keçirilməsi;

2.1.17. "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2181 nömrəli Fərmanına uyğun olaraq, 2025-ci il yanvarın 1-dək edilən müraciətlər əsasında istismarına icazə verilmiş qeyri-yaşayış təyinatlı tikinti obyektlərinin yerləşdiyi torpaqların kateqoriyasının dəyişdirilməsi.

2.2. Torpaqların məqsədli təyinatının dəyişdirilməsi əsasları aşağıdakılardır:

2.2.1. ərazi planlaşdırılması ilə bağlı hallar;

2.2.2. torpaqların münbitlik göstəriciləri, əkinəyararlılıq vəziyyəti, meliorasiya və irriqasiya sistemlərinin mövcudluğu nəzərə alınmaqla və kənd təsərrüfatı yerlərindən daha səmərəli istifadə edilməsi üçün torpağın keyfiyyətinin yaxşılaşdırılmasına zəmin yaratmaqla, torpaqlardan məqsədli təyinatına uyğun istifadə istiqamətinin dəyişdirilməsi zərurəti ilə bağlı yaranan hallar (əkin dövriyyəsi və çoxillik əkmələr).

2.3. Fəaliyyət sferasına (maraqlarına) toxunulan aşağıdakı dövlət orqanları torpaq sahəsinin kateqoriyasının (kateqoriya daxilində məqsədli təyinatının) dəyişdirilməsi ilə bağlı müraciətlərə aşağıdakı istiqamətlərdə rəy verirlər:

2.3.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi – torpaqların kateqoriyasının dəyişdirilməsinə münasibətdə torpaqların kənd təsərrüfatı perspektivlərinin mövcudluğu, məqsədli təyinatının dəyişdirilməsinə münasibətdə isə torpaqların əkinəyararlılıq vəziyyəti, heyvandarlığın və əkinçiliyin inkişafı ilə bağlı aqrar sahədə torpaq ehtiyatlarından səmərəli istifadəyə dair;

2.3.2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi – faydalı qazıntıların çıxarılması üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin yerin təki haqqında qanunvericiliyə uyğunluğuna, ətraf mühitin mühafizəsinə dair;

2.3.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – kateqoriyaya aid edilməsi və ya kateqoriyasının dəyişdirilməsi, yaxud məqsədli təyinatının dəyişdirilməsi nəticəsində torpaqdan istifadənin iqtisadi göstəricilərinə və səmərəliliyinə dair;

2.3.4. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi:

2.3.4.1. kateqoriyası dəyişdirilməli torpaq sahəsi yaşayış məntəqəsinin inzibati sərhədləri daxilində yerləşdiyi halda – təklif edilən dəyişikliyin, habelə torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin yaşayış məntəqəsinin baş planına, müvafiq ərazinin şəhərsalma sənədlərinə (qüvvədə olan müfəssəl plana, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə) və kənd ərazilərində naturada işlənilmiş və təsdiq edilmiş yerquruluşu planına uyğunluğuna dair;

2.3.4.2. yaşayış məntəqəsinin inzibati sərhədlərinə daxil olmayan kateqoriyası dəyişdirilməli torpaq sahəsində tikinti niyyəti həyata keçirildiyi halda – tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara uyğunluğuna dair;

2.3.5. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi – ümumi istifadədə olan meliorasiya və irriqasiya sistemlərinin hüdudlarında yerləşən torpaq sahələrinə münasibətdə meliorasiya və irriqasiya sistemlərinin mövcudluğuna, yararlılıq vəziyyətinə, bu istiqamətdə nəzərdə tutulan layihələrə və su ehtiyatlarının potensialına dair;

2.3.6. müvafiq rayon (şəhər) icra hakimiyyətləri – müvafiq ərazidə dövlət mülkiyyətində olan torpaqlardan istifadənin planlaşdırılmasına, habelə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsinə, torpaqlardan səmərəli istifadə edilməklə ərazinin iqtisadi və sosial inkişafının və məşğulluğun təmin edilməsinə dair.

**3. Torpaqların kateqoriyalara aid edilməsinə, onların bir kateqoriyadan digərinə keçirilməsinə və məqsədli təyinatının dəyişdirilməsinə dair müraciətlərə baxılma**

3.1. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və kateqoriya daxilində məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı həmin torpaq sahəsinin yerləşdiyi ərazi vahidi, aid olduğu kateqoriya (kateqoriya daxilində məqsədli təyinat), keçirilməsi nəzərdə tutulan kateqoriya (kateqoriya daxilində məqsədli təyinat), keçirilmənin əsaslandırılması, torpaq sahəsinin ölçüsü, mülkiyyətdə, istifadədə və ya icarədə olması, kənd təsərrüfatı kateqoriyasına aid torpaq sahəsi olduqda həmçinin suvarılan və ya dəmyə olması barədə məlumatlar, habelə kateqoriyaya aid edilən, digər kateqoriyaya keçirilən və məqsədli təyinatı dəyişdirilən torpaq sahəsinin planlaşdırılan istifadə istiqamətləri aydın göstərilməklə aşağıdakı subyektlər Xidmətə müraciət edir:

3.1.1. dövlət mülkiyyətində olan torpaqlara münasibətdə – aidiyyəti dövlət orqanları (qurumları);

3.1.2. bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə – müvafiq bələdiyyələr;

3.1.3. xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə – torpaq mülkiyyətçiləri;

3.1.4. torpaqlar uzunmüddətli istifadədə olduğu hallarda, mülkiyyətçinin yazılı razılığı ilə icarəçi və ya istifadəçi olan fiziki və ya hüquqi şəxslər.

3.2. Müraciətə aşağıdakı sənədlər əlavə edilir:

3.2.1. torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququna dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış;

3.2.2. torpaq sahəsinin ölçüsündən asılı olaraq, müvafiq miqyasda tərtib olunmuş situasiya planı (sərhədlərinin döngə nöqtələri və onların koordinatları əks olunmaqla) və ya sərhədləri daxilində mövcud və yerləşdirilməsi nəzərdə tutulan tikililər olduğu halda, layihəçi tərəfindən tərtib olunmuş layihələndirilən ərazinin baş planı (xətti qurğularda isə onların istiqamətinin uzununa profilli en kəsiyi);

3.2.3. bütün əsaslar və mülkiyyət növləri üzrə torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə dəyən ziyanın, kənd təsərrüfatı və meşə təsərrüfatı itkilərinin ödənilməsi, habelə kateqoriyasının dəyişdirilməsi nəzərdə tutulan torpaq sahəsində obyektin layihələndirilməsi müddətində mənafeyinə toxunulan hüquqi və fiziki şəxslərin tikinti ilə bağlı tələblərinin yerinə yetirilməsi barədə xeyrinə torpaq sahəsi əldə edənin notariat qaydasında təsdiq edilmiş zəmanət məktubu;

3.2.4. bu Qaydaların 3.2.1–3.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş sənədlərə əlavə olaraq:

3.2.4.1. bələdiyyə mülkiyyətində olan torpaqlara münasibətdə torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi barədə təkliflərin müzakirəsinə dair Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli 792 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bələdiyyələrin Nümunəvi Reqlamenti"nə uyğun tərtib edilmiş bələdiyyə iclasının protokolundan çıxarış;

3.2.4.2. xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə mülkiyyətçi fiziki şəxs olduqda – onun şəxsiyyətini təsdiq edən sənədin surəti (müraciət torpaq mülkiyyətçisinin adından başqa şəxs tərəfindən edildikdə, notariat qaydasında təsdiq edilmiş etibarnamənin surəti), mülkiyyətçi hüquqi şəxs olduqda isə hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, onun nümayəndəsinin səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surətləri;

3.2.4.3. neft və qaz hasilatı istisna olmaqla, faydalı qazıntı yataqlarının istismarı ilə əlaqədar dağ-mədən işlərinin həyata keçirilməsi üçün torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi tələb olunduqda, faydalı qazıntıların təsdiq edilmiş ehtiyatları və onların işlənilməsinin məqsədəuyğunluğu haqqında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi, habelə sifarişçinin vəsaiti hesabına hazırlanmış torpaqların rekultivasiyası layihəsi;

3.2.4.4. torpaqların bir kateqoriyadan digərinə keçirilməsi məcburi hüquqi qüvvəyə malik ərazi planlaşdırılması sənədlərinin (ümumi, baş və müfəssəl planların) dəyişdirilməsi ilə bağlı olduqda, torpaq mülkiyyətçilərinin və istifadəçilərinin (dövlət orqanlarının, istifadəsində torpaq sahəsi olmaqla, dövlətə məxsus hüquqi şəxslərin) razılığı;

3.2.4.5. bu Qaydaların 3.1.4-cü yarımbəndinə uyğun olaraq müraciət edildiyi hallarda, mülkiyyətçinin yazılı razılıq sənədi.

3.3. Xidmət torpaqların kateqoriyalara aid edilməsi, bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı edilmiş müraciətə dair sənədlərin və məlumatların tamlığını, habelə torpaqların münbitliyinin mühafizəsi, torpaqların münbitlik xassələrinin göstəricilərini, torpaq sahəsinin keçirilməsi təklif edilən kateqoriya (kateqoriya daxilində məqsədli təyinat) üzrə istifadəsinin mümkünlüyünü, mülkiyyət, icarə və ya istifadə hüquqları barədə məlumatların, dövlət torpaq kadastrı, daşınmaz əmlakın dövlət reyestri və TEKUİS-nin məlumatlarının düzgünlüyünü yoxlayır.

3.4. Müraciətdə və ona əlavə olunan sənədlərdə (məlumatlarda) aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, müraciət daxil olduğu gündən 3 (üç) iş günündən gec olmayaraq Xidmət onların aradan qaldırılması barədə məlumatı yazılı qaydada müraciət edən subyektə göndərir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Müraciətdə və əlavə olunan sənədlərdə aşkar edilən bütün çatışmazlıqlar müraciət edən subyektə eyni zamanda bildirilməlidir. Müraciət edən subyekt həmin çatışmazlıqları məlumatı aldığı gündən ən geci 20 (iyirmi) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman müddətin axımı dayandırılır. Göstərilən müddətdə çatışmazlıqlar aradan qaldırılmadıqda, Xidmət müraciət edən subyekti yazılı qaydada məlumatlandırmaqla müraciətin baxılmamış saxlanılması barədə qərar qəbul edir. Müraciət edən subyekt aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra bu Qaydalara uyğun olaraq təkrar müraciət edə bilər.

3.5. Müraciətdə və ona əlavə olunan sənədlərdə (məlumatlarda) çatışmazlıqlar aşkar edilmədikdə, habelə bu Qaydaların 3.4-cü bəndinə uyğun olaraq aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqda, Xidmət 3 (üç) iş günündən gec olmayaraq bu Qaydaların 2.3.1-ci, 2.3.3–2.3.6-cı yarımbəndlərində qeyd olunan, habelə dövlət torpaq kadastrı məlumatlarına əsasən mənafeyinə toxunulan aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəylərinin alınması üçün Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə həmin dövlət orqanlarına (qurumlarına) müraciət edir. Aidiyyəti dövlət orqanları (qurumları) 10 (on) iş günü müddətində rəylərini bildirməlidirlər. Göstərilən müddətdə rəylər təqdim edilmədikdə, torpaq sahəsinin kateqoriyasının (kateqoriya daxilində məqsədli təyinatının) dəyişdirilməsi aidiyyəti dövlət orqanı (qurumu) ilə razılaşdırılmış hesab olunur.

3.6. Bu Qaydalara əsasən müraciətə əlavə edilməli olan sənədlərin və məlumatların EHİS vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar müraciət edən subyektdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların EHİS vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda, onların təqdim edilməsi müraciət edən subyektin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya müraciət edən subyekt tərəfindən təmin edilir.

3.7. Bu Qaydaların 3.3 – 3.6-cı bəndlərində nəzərdə tutulan işlər tamamlandıqdan sonra Xidmət tərəfindən 15 (on beş) iş günü müddətində mülkiyyət növlərinə uyğun olaraq torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri tərəfindən haqqı ödənilməklə torpaq sahəsinin yerquruluşu qaydasında yerdə (naturada) sərhədləri, qonşuluqları, döngə nöqtələrinin koordinatları müəyyən edilir, mərzçəkmə işləri aparılır və torpaq sahəsinin ərazisindən asılı olaraq iki nüsxədən ibarət kağız üzərində və elektron daşıyıcıda yerquruluşu planı (xəritəsi) hazırlanır. Yerquruluşu planı (xəritəsi) müvafiq yerli icra hakimiyyəti orqanı və ya bələdiyyə və aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılır və təsdiq edilir. Yerqulуşu planı (xəritəsi) müraciət və ona əlavə edilən sənədlər, habelə təqdim edilmiş rəylərlə birlikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilir.

3.8. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi kateqoriyaya aid ediləcək, habelə kateqoriyası, məqsədli təyinatı dəyişdiriləcək torpaq sahəsinin kağız üzərində və elektron daşıyıcıda hazırlanmış, razılaşdırılmış yerquruluşu planının (xəritəsinin) bir nüsxəsini, müraciəti və ona əlavə olunan sənədləri, təqdim edilmiş rəyləri, torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsinin əsasları, torpaq sahəsinin ölçüsü, yerləşdiyi ərazi vahidi, əvvəl aid olduğu kateqoriya (kateqoriya daxilində məqsədli təyinat), mülkiyyət növü, habelə torpaqdan istifadəyə dair xüsusi şərtlər və məhdudiyyətlər barədə məlumatları 10 (on) iş günü müddətində Nazirlər Kabinetinə təqdim edir.

3.9. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi barədə Nazirlər Kabineti tərəfindən bu Qaydaların 1.4-cü və 1.5-ci bəndlərinə uyğun olaraq qərar qəbul edildiyi halda, onun surəti Xidmətə daxil olduqdan sonra dövlət torpaq kadastrında 2 (iki) iş günü müddətində dəyişikliklər edilir və bu barədə müraciət edən subyektə 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada məlumat verilir. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada və müddətdə müraciət edən subyektin ərizəsi əsasında bu dəyişikliklər daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır.

3.10. Torpaq sahəsinin kateqoriyaya aid edilməsi, bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi prosesi bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq, dövlət torpaq kadastrında və daşınmaz əmlakın dövlət reyestrində bu barədə zəruri dəyişikliklər edildikdən sonra başa çatır.

**4. Torpaqların kateqoriyalara aid edilməsinə, onların bir kateqoriyadan digərinə keçirilməsinə və məqsədli təyinatının dəyişdirilməsinə dair müraciətlərə baxılmadan imtina edilməsi**

4.1. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsinə və məqsədli təyinatının dəyişdirilməsinə dair müraciətlərə baxılmasından aşağıdakı hallarda imtina edilir:

4.1.1. bu Qaydaların 3.1.1–3.1.4-cü yarımbəndlərində nəzərdə tutulmayan subyektlər tərəfindən müraciət edildikdə;

4.1.2. müraciətdə bu Qaydaların 3.1-ci bəndinin birinci abzasında nəzərdə tutulmuş məlumatlar öz əksini tapmadıqda və (və ya) müraciətə bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulan sənədlər əlavə edilmədikdə;

4.1.3. mənafeyinə toxunulduğu halda, qonşu torpaq sahələrinin qanuni sahiblərinin mövqeyi nəzərə alınmadıqda;

4.1.4. torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi qanunla qadağan edildikdə;

4.1.5. kateqoriyasının və ya məqsədli təyinatının dəyişdirilməsi nəzərdə tutulan torpaq sahəsi ərazi planlaşdırılması sənədlərinə, ərazi üzrə mövcud və layihələndirilmiş mühəndis-kommunikasiya təminatı sistemlərinə uyğun olmadıqda;

4.1.6. bu Qaydalarda əks olunan əsaslar üzrə torpaq sahəsinin kateqoriyasının və ya məqsədli təyinatının dəyişdirilməsi torpaqların münbitliyinin qorunmasına, torpağın münbitlik göstəricilərinə (aqrokimyəvi analizlərin nəticələri əsasında), əkinəyararlılıq vəziyyətinə, ətraf mühitin mühafizəsinə və torpaq ehtiyatlarından səmərəli istifadə məqsədlərinə uyğun olmadıqda;

4.1.7. ölkənin makroiqtisadi və ərazinin iqtisadi inkişaf istiqamətlərinə uyğun olmadıqda.

4.2. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarının (qurumlarının) mənfi rəyi buna əsas olan iradlar normativ hüquqi aktlara istinad olunmaqla və onların pozulan tələbləri dəqiq göstərilməklə əsaslandırılmalıdır.

4.3. Bu Qaydaların 4.1.1–4.1.7-ci yarımbəndlərində qeyd edilən hallar aradan qaldırıldıqdan sonra Xidmətə yenidən müraciət edilə bilər.

**5. Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsinə dair qərarın elektron informasiya sistemində qeydiyyatı və ötürülməsi**

Torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatının dəyişdirilməsinə dair qəbul edilmiş qərar barədə məlumatlar dövlət torpaq kadastrına daxil edilir və bu Qaydaların 1.2-ci bəndinə uyğun olaraq TEKUİS-ə və EKTİS-ə daxil edilir.

# Azərbaycan heç bir kənar yardım olmadan problemlərini uğurla həll edir

## *Xarici borc ÜDM-in 7,5 faizi qədərdir*

**Prezident İlham Əliyev sentyabrın 26-da keçirilən iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki çıxışında hazırda gələn ilin büdcəsinin müzakirəsinin getdiyini bildirərək, bu mühüm dövlət sənədinin ölkəmizin imkanlarını əks etdirdiyini vurğulayıb.**




Dövlətimizin başçısı daha sonra heç bir yerdən heç bir yardım almadığımızı, əksinə, xarici borcun azaldıldığını və bununla bağlı bir neçə il bundan əvvəl qarşıya qoyulan vəzifənin artıq uğurla yerinə yetirildiyini xatırladıb: “Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək”.

Yeri gəlmişkən, Maliyyə Nazirliyinin məlumatına əsasən, xarici borclanma hesabına icrası həyata keçirilən layihələr çərçivəsində vəsaitin istifadəsi üzrə təqdim edilən operativ məlumatlar və xarici dövlət borcu üzrə əsas borc ödənişləri nəzərə alınmaqla, cari ilin birinci yarısında xarici dövlət borcu 5 milyard 367,5 milyon dollar ekvivalentinə bərabər olub.

Eyni zamanda, daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində daxili dövlət borcu cari il iyulun 1-də 1 milyard 6571,9 milyon manat təşkil edib.

Xarici dövlət borcunun davamlı azalmasında dövlət başçısının 22 iyul 2022 -ci il tarixli müvafiq sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” önəmli rol oynayıb. Xatırladaq ki, adıçəkilən strategiyada 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizini, o cümlədən xarici dövlət borcunun 10 milyard dolları üstələməməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Burada onu da qeyd edək ki, respublikamızın 2022–2026-cı illərə dair sosial-iqtisadi inkişaf strategiyası imzalanana qədər xarici dövlət borcunun azalması probleminin həllini ölkə Prezidentinin 2018-ci il 24 avqust tarixli sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” şərtləndirib. Lakin dövrün bir sıra yeni sosial-iqtisadi çağırışları “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da müəyyən düzəlişlər aparılmasını zəruriləşdirib.

Prezident İlham Əliyev iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki nitqində gələn il minimum əməkhaqqı və minimum pensiyanın artırılacağını da bəyan edib: “Ölkə qarşısında duran vəzifələrin yerinə yetirilməsinə böyük maliyyə vəsaiti tələb olunmasına baxmayaraq biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik. Bu yaxınlarda Azərbaycan Milli Məclisində etdiyim çıxışda bütün o rəqəmlər diqqətə çatdırılmışdır. Təkrar etmək istəmirəm, son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldı”.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, ölkəmizdə sosial siyasətin uğurla davam etdirilməsi müəyyənləşdirilən vəzifələr sırasında həmişə diqqət mərkəzində saxlanılıb. Ölkəmizdə vətəndaşların layiqli yaşamasının gerçəkləşdirilməsi və sosial sahədə islahatların davam etdirilməsinə mühüm önəm verilib. Məsələn, 2018-ci ildən 4 milyon insanın sosial rifahının yaxşılaşmasına xidmət edən sosial paketlər uğurla reallaşdırılıb, son 5 ildə minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artırılıb.

Dövlətimizin başçısının gələn ildən minimum pensiya və minimum əməkhaqqının artırılması ilə bağlı səsləndirdiyi fikirlər deməyə əsas verir ki, sosial siyasət bundan sonra da diqqət mərkəzində saxlanılacaq, 2025-ci il büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında mühüm yer tutacaq.

Bütün istiqamətlər üzrə sosialyönümlü xərclər dövlət büdcəsi xərclərinin 43 faizini təşkil edir. 2025-ci ildə əməkhaqqı və sosial ödənişlərdə yeni artımların 2 milyondan artıq vətəndaşı əhatə edəcəyi gözlənilir. Müasir-innovativ təhsilin inkişafı və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması məqsədləri üçün növbəti ilin dövlət büdcəsində daha böyük vəsait nəzərdə tutulur.




# TAP Avropanın qaz təchizatında önəmli marşrutdur

## *Ötən 4 ildə bu kəmərlə 40 milyard kubmetr “mavi yanacaq” nəql olunub*

**(əvvəli 1-ci səhifədə)**

Sözügedən kəmərin operatoru olan TAP AG şirkətinin icracı direktoru Luka Skyepatti bugünlərdə İtaliyada keçirilən enerji sammitində bununla bağlı maraqlı fikirlər səsləndirib. O deyib ki, son 4 ilə yaxın müddətdə TAP vasitəsilə, təxminən, 40 milyard kubmetr qaz nəql edilib ki, bu da Avropada enerji təhlükəsizliyini, şaxələndirməni və “təmiz enerji” keçidini əhəmiyyətli dərəcədə artırıb. Hazırda boru kəmərinin ötürücülük qabiliyyətinin genişləndirilməsinə diqqətin artırıldığını vurğulayan icraçı direktor bildirib ki, şirkət daha ekoloji cəhətdən təmiz molekulların inteqrasiyası və istismar təsirinin minimallaşdırılması ilə dayanıqlı enerji keçidini dəstəkləyir.



Luka Skyepatti, həmçinin qeyd edib ki, rəhbərlik etdiyi şirkətin texniki və kommersiya cəlbediciliyi və çevikliyi operatorlar tərəfindən də tanınıb. Onun sözlərinə görə, hazırda 43 operator Trans-Adriatik boru kəmərinin güclərini dəqiqləşdirmək səlahiyyətlinə malikdir. İcraçı direktor TAP-la Avropaya təhlükəsiz şəkildə nəql edilən 40 milyard kubmetr qazın 32,8 milyard kubmetrinin İtaliyanın payına düşdüyünü bildirib. Trans-Adriatik boru kəmərinin 2026-cı ilin əvvəllərindən etibarən illik nəqletmə gücünün 1,2 milyard kubmetr artırılacağını vurğulayan Luka Skyepattinin fikrincə, bu, bazarın maraqları əsasında gücün genişləndirilməsi imkanlarını təsdiq edir.

Bu arada, Yunanıstan–Bolqarıstan interkonnektorunun (IGB) operatoru olan ICGB Yunanıstanın Komotini şəhərində yerləşən qoşulma nöqtəsində qonşu DESFA təbii qaz ötürmə sistemi operatoru ilə qoşulma müqaviləsi imzalayıb. Bu barədə ICGB-dən məlumat verilib. Qeyd olunub ki, müqavilə bütün müvafiq tənzimləmə tələblərinə cavab verir və qoşulma nöqtəsində bütün əməliyyatları tənzimləyəcək qayda, şərt və prosedurların tam dəstini müəyyən edir. Şirkətin açıqlamasında o da bildirilir ki, hər iki ötürmə sistemi operatoru kommersiya istismarına başladıqdan sonra qoşulma nöqtəsində təhlükəsiz, etibarlı və səmərəli uyğunluq təmin ediləcək. Xatırladaq ki, IGB-nin illik nəqletmə gücü 3 milyard kubmetr təşkil edir. Gələcəkdə isə bu göstəricini 5 milyard kubmetrə qədər artırmaq üçün imkanlar mövcuddur.

Qeyd edək ki, Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP vasitəsilə hər il İtaliyaya 8 milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə 1 milyard kubmetr həcmində qaz nəql olunur. Ümumilikdə isə, artıq Azərbaycan qazının alıcılarının sayı 10-a çatıb ki, bunun da 8-i Avropa ölkəsidir. “Şahdəniz” yatağının ikinci işlənmə mərhələsi çərçivəsində hasil edilən “mavi yanacağ”ın Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP kəməri ilə Avropaya nəqlinə isə 2020-ci il dekabrın 31-də başlanılıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropaya çıxarmaq imkanı qazanıb. Eyni zamanda, dünyada təbii qazın ən iri idxalçısı sayılan Avropanın enerji bazarına birbaşa çıxışla Azərbaycan öz ixrac imkanlarını da şaxələndirməyə nail olub.

Yeri gəlmişkən, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən “Trans-Adriatik Qaz Boru Kəməri” layihəsi 11 il əvvəl həyata vəsiqə alıb. Kəmərin tikintisi 2020-ci ilin oktyabrında başa çatdırılıb. TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir.

# Qlobal innovasiya indeksində mövqeyimiz yüksəlib

## *Ölkəmiz 133 ölkə arasında 15-ci yerdə qərarlaşıb*

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan “Bilik və texnoloji nəticələr” indikatoru üzrə patent alt indikatorunda 13 pillə (50-ci yer) irəliləyib. Qlobal İnnovasiya İndeksinin ekspertlərinin fikrincə, bu nəticə Cənubi Qafqaz regionunda ən yüksək göstəricidir. Bundan əlavə, respublikamız Patent Əməkdaşlığı Müqaviləsi vasitəsilə təqdim edilən patentlərin sayına görə keçən illə müqayisədə 15 pillə irəliləyərək 72-ci, faydalı model patentlərinin sayına görə isə 49-cu yerdə qərarlaşıb.

“Əmək məhsuldarlığının artımı” indikatorunda Azərbaycan 34 pillə yüksələrək 28-ci yerdə qərarlaşıb. Bu, sənaye və istehsalatda qabaqcıl texnologiyaların tətbiqi, əqli əməyin inkişafı, işçilərin ixtisasının artırılması və digər bu kimi tədbirlər sayəsində mümkün olub.

Respublikamız, həmçinin “Yaradıcı fəaliyyətin nəticələri” indikatorunun əmtəə nişanı alt indikatorunda 17 pillə irəliləyərək 49-cu yeri tutub. Bu göstəriciyə görə ölkəmiz regionun bir çox ölkələrini qabaqlayıb.




Qeyd edək ki, sözügedən indeks innovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərini əhatə edən, təxminən, 80 indikator əsasında tərtib olunub. Təhlili aparılan indikatorlarda qanunvericilik, elm və təhsil, bazar, biznes, infrastruktur kimi məsələlərin inkişaf göstəriciləri diqqətə çatdırılıb.

Qlobal İnnovasiya İndeksinin 2024-cü il üzrə lideri İsveçrədir. İndeks üzrə ilk beşliyi İsveç, Amerika Birləşmiş Ştatları, Sinqapur və Böyük Britaniya tamamlayır. İlk onluqda növbəti yerlərdə Koreya, Finlandiya, Niderland, Almaniya və Danimarka qərarlaşır. Çin reytinqdə 11-ci yeri tutur. Azərbaycan isə 95-ci yerdədir.

# İqtisadi kredit qoyuluşları 23 faiz çoxalıb

**2024-cü il sentyabr ayının 1-nə ölkə iqtisadiyyatına cəmi kredit qoyuluşları 27 milyard 649,4 milyon manat təşkil edib.**



Azərbaycan Mərkəzi Bankının bununla bağlı yaydığı məlumatda bildirilir ki, bu göstərici cari ilin əvvəli ilə müqayisədə 15,3 faiz çoxdur. Ötən il sentyabr ayının 1-i ilə müqayisədə isə iqtisadiyyata kredit qoyuluşları 23 faiz və ya 5 milyard 165,3 milyon manat artıb.

# Sığorta şirkətlərinin investisiyaları 6 faiz artıb

**Bu ilin I yarısında ölkəmizdəki sığorta şirkətlərinin investisiyaları ötən ilin sonu ilə müqayisədə 6 faiz (94 milyon manat) artaraq iyulun 1-nə 1 milyard 602 milyon manata çatıb.**



Mərkəzi Bankın “2024-cü ilin I yarısı üzrə maliyyə sabitliyi hesabatı”na əsasən, sığorta şirkətlərinin investisiyalarında artım əsasən, dövlət qiymətli kağızları (100 milyon manat) hesabına yaranıb. Ümumilikdə, həyat sığorta şirkətlərinin vəsaitlərinin 91 faizini, qeyri-həyat sığorta şirkətlərinin vəsaitlərinin isə 77 faizini investisiya portfeli təşkil edib. Sığorta şirkətlərinin investisiya vəsaitləri daha çox dövlət qiymətli kağızlarından və bank vəsaitlərindən ibarət olub.

Bu ilin yanvar-iyun aylarında sığorta sektoru investisiya fəaliyyətindən 58 milyon manat gəlir əldə edib ki, bu da cəmi gəlirlərin 8 faizini təşkil edir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# “Yaşıl dünya” naminə həmrəylik



# Azərbaycan dünyada iqlim dəyişikliyi ilə mübarizənin ön cəbhəsidir

*(əvvəli 1-ci səhifədə)*



**Fəridə ƏLİ,**
**Azərbaycan Tibb Universitetinin kafedra müdiri, tibb üzrə fəlsəfə doktoru, dosent**

Nəzərə almaq lazımdır ki, sağlam insan hava dəyişmələrinə qısa zamanda uyğunlaşa bilsə də, yaşlı və xəstə orqanizmi meteohəssas olduğu üçün baş verən hava dəyişmələrinə uyğunlaşmaqda çətinlik çəkir. Belə vəziyyət xəstəliklərin kəskinləşməsinə, hətta həyat üçün təhlükəli vəziyyətin yaranmasına səbəb olur. Meteotrop reaksiyalar müxtəlif formalarda–ümumi əhvalın halsızlaşması, yuxunun pozulması, qorxu hissiyyatı, baş ağrıları, başgicəllənmələr, əmək qabiliyyətinin itirilməsi, yaxud azalması, tez yorulma, arterial təzyiqin kəskin dəyişməsi və s. ilə müşayiət olunur. Bəzi hallarda belə dəyişkənlik nəticəsində dərman maddələrinə ifrat həssaslıq yarana bilir ki, bu da həyat üçün ciddi təhlükə yaradır.

Bütün iqlim zonalarında orqanizmin həmin şəraitə uyğunlaşması normal fizioloji prosesdir. Lakin kəskin iqlim dəyişiklikləri zamanı orqanizmin fizioloji funksiyaları gərilir. Bu səbəbdən səhhətində problem olan hər bir insan iqlim şəraitinin kəskin dəyişməsinin zərərli təsirini azaltmaq məqsədilə səmərəli qidalanma, əmək və istirahət rejiminin tənzimlənməsi, bədənin möhkəmləndirilməsi, eləcə də müalicə-profilaktikaya üstünlük verməlidir.

Atmosfer havasının kimyəvi tullantılarla çirklənməsi də orqanizmə mənfi təsir göstərir. Hər bir şəxsin ağciyər alveollarının (qovucuqların), təxminən, 100 kvadratmetr olduğunu və sutka ərzində tənəffüslə 13-15 min litr hava qəbul etdiyini nəzərə alsaq, o zaman havadakı hər hansı bir qaz qarışığının sağlamlıq üçün təhlükəsinin dərəcəsi anlaşılar. Müasir texniki-texnoloji amillər səbəbindən ətraf mühit müxtəlif təbii və antropogen mənbələrdən çirklənməyə məruz qalır. Yer üzərində antropogen mənşəli çirklənmə mənbələrinin sayı isə yüzlərlədir. Belə çirkləndirmə mənbələrindən iri sənaye müəssisələrinin zərərli, hətta zəhərli tullantılarını, müxtəlif növ yanacaqları, istixana effekti yaradan qazların havaya atılmasnıı və s. göstərə bilərik.



Bu sırada ən çox diqqət yetirilməli təhlükə mənbələriindən biri müxtəlif avtonəqliyyat vasitələrindən atmosferə atılan tonlarla çirkləndirici tullantılardır. Belə tullantılar atmosfer havasını mütəmadi çirkləndirməklə, eyni zamanda, torpağa, onun vasitəsilə suya, bitkilərin tərkibinə göstərdiyi təsirlər, nəhayət, zəncirvari şəkildə davam edərək qida məhsulları ilə insanların orqanizminə sızmaqla sağlamlığının pozulmasına səbəb olur. Bu isə qeyri-infeksion xəstəliklərin yaranması, eyni zamanda, müxtəlif xəstəliklərin kəskinləşməsi ilə nəticələnir.

Beləliklə, bu kimi halları nəzərə almaqla iqlim dəyişikliyinin nə dərəcədə qlobal təhlükə yarada bildiyini qiymətləndirmək mümkündür. Xatırladaq ki, planet boyu bütün meqapolislərdə, iri şəhərlərdə, kənd və qəsəbələrdə daim hərəkətdə olan avtomobil, su və hava nəqliyyatı çirkləndiricilər cərgəsindədir.

Qeyd edək ki, bütün inkişaf etmiş ölkələr kimi, bizim respublikamız da dünyanın qlobal problemlərinin həllinə öz töhfəsini verməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi məhz bu qlobal problemə diqqətin artırılmasından irəli gəlib. Sərəncama əsasən, respublikada ekoloji problemlər, iqlim dəyişiklikləri və onun təsirləri ilə mübarizə istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Bu tədbirlərlə yanaşı, insanların maarifləndirilməsində mühüm əhəmiyyət daşıyır. Yeri gəlmişkən, bu istiqamətdə mətbuatın, kütləvi informasiya vasitələrinin, elektron medianın əhəmiyyətli rolu xüsusi vurğulanmalıdır.

Əhalinin sağlamlığının qorunmasında və gələcək nəsillərin sağlamlığına mənfi təsir edə biləcək amillərin qarşısının alınmasında “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində görülən tədbirlər şübhəsiz ki, dövlətin ölkə əhalisinə və gələcək nəsillərin sağlamlığına göstərdiyi diqqətin və qayğının bariz təzahürüdür. İqlim dəyişikliklərinə və ekoloji problemlərə həsr edilmiş mühüm beynəlxalq tədbirin– COP29-un cari ilin noyabrında Bakıda keçirilməsi də məhz dövlət siyasətinin parlaq nümunəsi kimi dəyərləndirilməlidir.

Dünya liderlərinin, ictimai-siyasi xadimlərinin, vətəndaş cəmiyyəti fəallarının iştirakı ilə planetin ən böyük problemlərindən olan iqlim dəyişikliyi məsələlərinin müzakirəsinə həsr ediləcək belə bir mötəbər tədbirə evsahibliyi etmək ölkəmiz üçün böyük əhəmiyyətə malikdir. Belə ki, bu konfransda yuxarıda qeyd etdiyim ciddi ekoloji problemlərin müzakirəsi və həlli yollarının axtarılması ilə yanaşı, Ermənistanın 30 il ərzində Azərbaycan ərazilərini ekoloji terrora məruz qoyması bir daha dünyaya nümayiş etdiriləcək.

Yeri gəlmişkən, BMT-nin müvafiq sənədlərinə əsasən, bir ölkə tərəfindən digər ölkənin təbiətinə, flora və faunasına bilərəkdən zərər yetirmək, təbii sərvətlərini məhv etmək ekoloji terror hesab edilir ki, erməni vandalları təbiətimizə qarşı məhz bu fəaliyyətlə məşğul olmuşlar. COP29 düşmənin Qarabağ və ətraf rayonlarda təkcə insanlara deyil, torpağımıza, kənd təsərrüfatına, meşə və əkin sahələrinə, içməli su mənbələrinə, təbii sərvətlərə və ümumən, ətraf mühitə necə ağır zərbələr vurduğu, basdırdığı minalarla torpağın kimyəvi tərkibinin, həmçinin mikroflorasının güclü şəkildə pozulması bir daha dünya ictimaiyyətinin, xüsusən, terrorçulara dəstək verən məkrli qüvvələrin diqqətinə çatdırılacaq.

Nəhayət, son olaraq fikrimi nikbin notlarla yekunlaşdırmaq istərdim. Bəşəriyyətin qarşılaşdığı ümumi bəlalardan, həmçinin ekoloji və iqlim dəyişiklikləri mövzusundan danışarkən insanlığın mövcudluğu baxımından nə qədər ciddi problemlər, təhlükələr olduğunu təsbit etsək də, inanırıq ki, böyük söz ustadı, Xalq şairi Səməd Vurğun demişkən, qalib gələcəkdir cahanda kamal!

# Nyu-Yorkda COP29-a hazırlıq müzakirələri

**BMT Baş Assambleyasının 79-cu sessiyasında və Nyu-York İqlim Həftəsində iştirak edən COP29 Azərbaycan Əməliyyat Şirkətinin nümayəndə heyətinin iştirakı ilə konfransa hazırlıq istiqamətində təşkilati və əməliyyat məsələlərinə dair üzv dövlətlərin nümayəndələri üçün brifinq təşkil edilib.**

Geniş təqdimatla çıxış edən COP29 Azərbaycan ƏŞ-nin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova COP prosesinin təqviminə daxil edilən başlıca tədbirlər, COP29-un tematik gündəliyi, o cümlədən İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti barədə məlumat verib. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Konfrans İşləri şöbəsinin direktoru Vasim Mir COP29 konfransının keçirilməsi üçün tələb olunan tədbir məkanının hazırlanması və əməliyyatların qurulması prosesini yüksək qiymətləndirib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Hökumətlərarası Dəstək və Kollektiv Tərəqqi şöbəsinin direktoru Sesilya Kinutia Njenqa COP29 İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammitinin proqramı və milli bəyanatlar üçün ölkələr tərəfindən müraciət prosesi barədə danışıb. COP29 Azərbaycan ƏŞ-nin Koordinasiya Şurasının üzvləri Şəhla Abbəkirova və İsmayıl İsayev COP29 zamanı müsbət ziyarətçi təcrübəsi, qeydiyyat və akkreditasiya məsələləri, xüsusi COP29 vizası, media xidmətləri, nəqliyyat sxemləri kimi mövzular ətrafında iştirakçıları məlumatlandırıblar.

*

**COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev Azərbaycan, Kolumbiya və Səudiyyə Ərəbistanı Krallığı hökumətlərinin yeni tərəfdaşlığı çərçivəsində həyata keçiriləcək “Rio Üçlüyü” təşəbbüsünün rəsmi açılışı üçün Rio Konvensiyasının gələcək sədrləri ilə görüşüb.**

Görüş zamanı həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin nümayəndələri konvensiyalararası əməkdaşlığın qlobal dayanıqlılıq üzrə effektiv həll variantlarını necə təmin edə biləcəyi xüsusunda fikirlər irəli sürüb və öz perspektivlərini bölüşüblər.

COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev qeyd edib: “Bizim məqsədimiz hər üç Rio Konvensiyası üzrə əməkdaşlığı gücləndirməklə sinerji yaratmaq, səmərəliliyi artırmaq və həm insanlara, həm də planetə fayda verəcək konkret nəticələri təmin etməkdir”.

**Sentyabrın 27-də Nyu-York şəhərində COP29 Prezidentliyinin Yüksək Səviyyəli Çempionunun, İqlim Fəaliyyəti üzrə Qlobal Təşəbbüslər Qrupunun və Beynəlxalq Nizami Gəncəvi Mərkəzinin birgə təşəbbüsü ilə İqlim Maliyyəsi, İnvestisiya və Ticarət üzrə Bakı Təşəbbüsündə özəl sektorun roluna həsr edilmiş yan tədbir təşkil edilib.**

Açılışda COP29 Yüksək Səviyyəli Çempionu Nigar Arpadarai və COP29 Fəaliyyət Gündəliyinin Qlobal Təşəbbüslər Qrupunun həmsədri Elmar Məmmədov COP29 Prezidentliyinin BICFIT təşəbbüsünə dair məlumat veriblər. Tədbir çərçivəsində iki panel təşkil edilib.

*XQ*

# Enerji keçidi mövzusunda “dəyirmi masa”

**Lənkəran Dövlət Universitetində (LDU) “COP29: İqlim dəyişikliyi və regional iqtisadiyyata yeni yanaşma” mövzusunda “dəyirmi masa” keçirilib. Azərbaycan Dövlət İqtisad Universitetinin Rus İqtisad Məktəbinin birgə təşkilatçılığı ilə keçirilən iqlim tədbirini LDU-nun elm və innovasiya məsələləri üzrə prorektoru, dosent Elvin Əliyev açaraq “dəyirmi masa”nın gündəliyi, müzakirə olunacaq məsələlər, COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyəti barədə iştirakçılara ətraflı məlumat verib.**



“Dəyirmi masa”da Rus İqtisad Məktəbinin direktoru, dosent Mənsur Bərxudarov “COP29: İqlim dəyişikliyi və regional iqtisadiyyata yeni yanaşma” mövzusunda geniş məruzə edib. Məruzəçi müasir dünyanı narahat edən qlobal ətraf mühit problemləri və iqlim dəyişmələrinin başvermə səbəbləri, Azərbaycan Respublikasının karbon emissiyalarının minimuma endirilməsi ilə bağlı həyata keçirdiyi genişmiqyaslı tədbirlər barədə məlumat verib.

Qeyd olunub ki, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə göstərilən növbəti etimadın və inamın göstəricisi, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin məntiqi nəticəsidir. M. Bərxudarov bildirib ki, ölkəmizin bu tədbirə ev sahibi kimi seçilməsi həm də onu göstərdi ki, Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi özünü tanıda bilib və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilib.

Məruzəçilər ekoloji tarazlığın və ətraf mühitin qorunması, alternativ və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə, eləcə də iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində görülən işlərin əhəmiyyətindən danışıb, Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin respublikamızda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıblar.

Daha sonra məruzələr ətrafında geniş diskussiya keçirilib, təklif və rəylər səsləndirilib, suallar cavablandırılıb.

# Beynəlxalq konfransda “yaşıl” enerji təqdimatı

**Energetika naziri Pərviz Şahbazov Almaniyada keçirilən külək enerjisi sahəsində dünyanın ən böyük konfransında Azərbaycanın beynəlxalq əməkdaşlığa əsaslanan “yaşıl” enerji siyasəti barədə məlumat verib. O, ölkəmizdə 2 milyard dollar dəyərində reallaşdırılan 2 QVt-lıq stansiyalar, Xəzər dənizinin 157 QVt külək enerji potensialı əsasında 2037-ci ilədək planlaşdırılan 18 QVt-lıq meqa layihələr və “yaşıl” enerji dəhlizləri barədə danışıb.**



P.Şahbazov çıxışında iqlim dəyişikliyinin XXI əsrin ən böyük problemlərindən biri olduğunu, istixana qazlarının atmosferdəki konsentrasiyasının artması nəticəsində günəşin istilik enerjisinin xeyli hissəsinin yer üzərində tutulması, qlobal istiləşmənin ekosistemlərdə, insan sağlamlığında və iqtisadiyyatlarda ciddi fəsadlar yaratması barədə fikirlərini bölüşüb.

Energetika naziri daha sonra bildirib ki, bəşəriyyətin iqlim böhranı ilə mübarizə aparmaq və onun dağıdıcı təsirlərinin qarşısını almaq üçün 2100-cü ilədək qlobal temperatur artımını 2 dərəcə altında saxlamaq kimi önəmli məqsədi var. Bu məqsədi gerçəkləşdirmək məqsədilə Paris iqlim sazişi qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən maksimum 1,5 dərəcəyə qədər məhdudlaşdırmağı nəzərdə tutur.

# Son illərdə ölkədə orta istilik 1,1 dərəcə yüksəlib

## *Ən çox artım isə Bakı və Şəkidə müşahidə olunub*

**Ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov “Avropa və Mərkəzi Asiya ölkələrinin aqroərzaq sektorunda iqlim tədbirlərinin gücləndirilməsi” mövzusunda keçirilən regional iqlim konfransındakı çıxışında son onilliklərdə istilik dalğalarının ən çox artımının Bakı və Şəkidə müşahidə edildiyini bildirib. Dünyada qlobal iqlim dəyişiklikləri və antropogen amillərin təsiri ilə əkinə yararlı torpaqların deqradasiyaya uğradığını, şirin su ehtiyatlarının azaldığını diqqətə çatdıran nazir müavini baş verən iqlim dəyişikliklərinin aqrar sektora mənfi təsiri ilə yanaşı, kənd təsərrüfatı fəaliyyətlərinin də, öz növbəsində, iqlim dəyişikliklərinə səbəb olan amillər sırasında yer aldığını qeyd edib.**



V.Kərimov vurğulayıb ki, qlobal miqyasda atmosferə buraxılan istixana qazlarının 20 faizə qədəri kənd təsərrüfatı fəaliyyətləri nəticəsində yaranıb. Azərbaycanda son 23 ildə ölkə üzrə temperatur anomaliyası 1,1 dərəcə olub. 2023-cü ildə orta temperatur 14,6 dərəcəyə çatıb. Bu da 1971–2000-ci ilin norması ilə (12,7 dərəcə) ilə müqayisədə 1,9 dərəcə dərəcə çoxdur. Son onilliklərdə ən yüksək orta temperatur 2013-cü ildə 14,8 dərəcə təşkil edib.

Nazir müavini qeyd edib ki, 1961–1990-cı illərdə bütün stansiyalarda istilik dalğalarının həm təkrarlanmasında, həm də davamiyyətində artım müşahidə olunub: “Son onilliklərdə bu proseslər dəfələrlə artaraq Bakıda 29, Gəncədə 16, Şəkidə 41 və Lənkəranda 5 dəfə təkrarlanıb. Ən çox artım Bakı və Şəkidə müşahidə olunub”.

# COP29-un prezidenti Britaniyanın dövlət katibi ilə görüşüb



**COP29-un müəyyən olunmuş prezidenti, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Böyük Britaniyanın enerji təhlükəsizliyi və “xalis sıfır” emissiyalar üzrə dövlət katibi Ed Milibendlə görüşüb.**

Tərəflər dekarbonizasiya üzrə Paris sazişinin məqsədlərinə nail olmağın əhəmiyyətini vurğulayıb və qlobal enerji keçidini sürətləndirmək, beynəlxalq əməkdaşlığı gücləndirmək və iqlim məqsədlərinə nail olmaq baxımından dayanıqlı texnologiyalara bərabər çıxışı təmin etmək üçün strategiyaları müzakirə ediblər.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Azərbaycan Respublikası Prezidentinin
2024-cü il 28 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir

# Dövlət informasiya ehtiyatlarının və sistemlərinin NÜMUNƏVİ ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Bu Nümunəvi Əsasnamə əsas və yardımçı dövlət informasiya ehtiyatlarının və sistemlərinin (bundan sonra – dövlət informasiya ehtiyatları və sistemləri) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Dövlət informasiya ehtiyatları və sistemləri rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının, həmçinin yerli özünüidarəetmə orqanlarının (bundan sonra – qurumlar) fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, həmin informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. Dövlət informasiya ehtiyatlarında və sistemlərində yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılmasının və işlənilməsinin məqsədi bu Nümunəvi Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.7. Dövlət informasiya ehtiyatları və sistemləri Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Nümunəvi Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.9. Bu Nümunəvi Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin texniki-texnoloji infrastrukturu**

2.1. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, dövlət informasiya ehtiyatlarının və sistemlərinin funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. Dövlət informasiya ehtiyatları və sistemləri fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq dövlət informasiya ehtiyatlarının və sistemlərinin telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları həmin dövlət qurumunun struktur bölmələri tərəfindən;

2.4.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. Dövlət informasiya ehtiyatlarında və sistemlərində formalaşdırılan, həmin informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən məlumatlar dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə dövlət informasiya ehtiyatları və sistemləri, o cümlədən həmin informasiya ehtiyatlarında və sistemlərində toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. Dövlət informasiya ehtiyatlarında və sistemlərində aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. Dövlət informasiya sisteminin altsistemləri**

3.1. Dövlət informasiya sisteminin strukturunda altsistemlər olduğu təqdirdə həmin informasiya sisteminin hansı altsistemlərdən ibarət olması göstərilir.

3.2. Dövlət informasiya sisteminin altsistemləri təyinatı üzrə müvafiq sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını və emalını, dövlət informasiya ehtiyatlarının və sistemlərinin inteqrasiyasını, monitorinq və təhlil aparılmasını, proqnozlar hazırlanmasını və müvafiq sahədə mərkəzləşdirilmiş elektron xidmətlər göstərilməsini təmin edir.

**4. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən məlumatlar**

4.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən (sahib və ya operatorun normativ hüquqi aktlarla müəyyən edilən hüquqlarının həyata keçirilməsi, vəzifələrinin icrası, habelə dövlət xidmətlərini göstərməsi zamanı tələb olunan) məlumatların tərkibi Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunur. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilən və ötürülən məlumatlar həmin informasiya ehtiyatlarının və sistemlərinin əsasnaməsində ayrılıqda qeyd edilir.

4.2. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.3. Dövlət informasiya ehtiyatları və sistemləri ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) həmin informasiya ehtiyatlarına və sistemlərinə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.4. Dövlət informasiya ehtiyatlarında və sistemlərində formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

**5. Dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə qaydası**

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların digər dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra – EHİS) inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən dövlət informasiya ehtiyatlarında və sistemlərində qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadə edirlər.

5.3. Fiziki şəxslər Vahid Giriş Sistemi vasitəsilə dövlət informasiya ehtiyatlarında və sistemlərində identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadə edirlər.

5.4. Dövlət informasiya sistemləri vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə həmin informasiya sistemlərinin rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. Dövlət informasiya sistemləri vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin dövlət informasiya sistemlərinin fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların toplanıldığı, işlənildiyi və mühafizə edildiyi ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) hallarda isə fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin, həmçinin fərdi məlumatların dövlət informasiya ehtiyatlarında və sistemlərində toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxış, habelə onların texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyini XRİTDX və operator ilə, kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra – DTX) ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə), XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. dövlət informasiya ehtiyatlarına və sistemlərinə qarşı müdaxilə cəhdləri aşkar edildikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. dövlət informasiya ehtiyatlarının və sistemlərinin, o cümlədən onların ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxışı olan, habelə onların aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etmək;

6.1.16. dövlət informasiya ehtiyatlarından və sistemlərindən sərbəst və maneəsiz istifadənin, habelə onların dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. dövlət informasiya ehtiyatlarında və sistemlərində dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. Dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə və onların funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyini XRİTDX və sahiblə, kritik informasiya infrastrukturunun obyekti hesab edilən dövlət informasiya ehtiyatlarına və sistemlərinə münasibətdə həmçinin DTX ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə (kritik informasiya infrastrukturu obyektlərinə münasibətdə), XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. dövlət informasiya ehtiyatlarına və sistemlərinə qarşı müdaxilə cəhdləri aşkar edildikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. dövlət informasiya ehtiyatlarının və sistemlərinin, o cümlədən onların ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə həmin informasiya ehtiyatlarının və sistemlərinin "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə həmin informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. dövlət informasiya ehtiyatlarından və sistemlərindən sərbəst və maneəsiz istifadəni, onların dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə dövlət informasiya ehtiyatlarının və sistemlərinin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etmək;

7.1.9. dövlət informasiya ehtiyatlarını və sistemlərini EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. dövlət informasiya ehtiyatlarının və sistemlərinin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Nümunəvi Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında dövlət informasiya ehtiyatlarında və sistemlərində dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. dövlət informasiya sistemlərindən istifadəni, habelə onlar üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.17. aidiyyəti qurumların dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. dövlət informasiya ehtiyatlarının və sistemlərinin parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər dövlət informasiya ehtiyatlarının və sistemlərinin təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, informasiya ehtiyatlarına və sistemlərinə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. dövlət informasiya ehtiyatlarına və sistemlərinə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. dövlət informasiya ehtiyatlarından və sistemlərindən, habelə həmin informasiya ehtiyatlarında və sistemlərində olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. dövlət informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun dövlət informasiya ehtiyatlarına və sistemlərinə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinə zərər gətirəcək, habelə onların fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Nümunəvi Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. dövlət informasiya ehtiyatlarındakı və sistemlərindəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

AMEA-da təqdimat

# “Əta Tərzibaşı Kərkükün milli tədqiqatçısı”



**AMEA Ədəbiyyat İnstitutunda Kərkük Mədəniyyət Dərnəyinin rəhbəri Şəmsəddin Küzəcinin “Əta Tərzibaşı Kərkükün milli tədqiqatçısı” kitabının təqdimatı keçirilib.**

İştirakçılar əvvəlcə türkman ədəbiyyatına dair AMEA-da nəşr olunmuş kitab sərgisi ilə tanış olublar.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli İraq-türkman və Azərbaycan ədəbiyyatının əlaqələrindən söz açaraq, ölkəmizdə İraq türkmanları haqqında geniş tədqiqatlar aparıldığını diqqətə çatdırıb. Elmi ictimaiyyətə təqdim olunan “Əta Tərzibaşı Kərkükün milli tədqiqatçısı” kitabının əhəmiyyəti haqqında danışan akademik İsa Həbibbəyli topluda İraq türkmanlarının Dədə Qorqudu sayılan Əta Tərzibaşının fəaliyyətinin bütün istiqamətlərinin əks olunduğunu söyləyib.

İnstitutun Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr şöbəsinin baş elmi işçisi professor Qəzənfər Paşayev “Azərbaycanda Əta Tərzibaşı haqqında tədqiqatlar” mövzusunda məruzə ilə çıxış edib. Şöbə müdirləri professorlar İmamverdi Həmidov və Asif Rüstəmli, institutun aparıcı elmi işçiləri - professor Nizami Tağısoy və filologiya üzrə fəlsəfə doktoru Qurban Bayramov, elmi işçisi Orxan İsayev, Folklor İnstitutunun aparıcı elmi işçisi Səkinə Qaybalıyeva Əta Tərzibaşının yaradıcılığının birliyimizin təməl daşlarından olduğunu söyləyiblər.

Mərasimdə yazıçı Varis Yolçuyev, professor Asif Rüstəmli, teleaparıcı Fəxriyyə İsayeva Əta Tərzibaşının yaradıcılığının təbliğindəki xidmətlərinə görə Kərkük Mədəniyyət Dərnəyi tərəfindən mükafatlandırılıblar.

Kərkük Mədəniyyət Dərnəyinin rəhbəri Şəmsəddin Küzəci təqdimatın təşkilinə və onun fəaliyyətinə verilən yüksək qiymətə görə akademik İsa Həbibbəyliyə minnətdarlığını bildirib.

***Qabil ƏLİYEV***
***XQ***

Kərkük xatirələri

# Bağdadda Füzuli festivalı

(əvvəli 1-ci səhifədə )



Yaşlı elm adamı Əta Tərzibaşı əziz qonaqlarını – Azərbaycan Yazıçılar Birliyinin sədri Anarı, o vaxtkı Mətbuat və İnformasiya naziri Sabir Rüstəmxanlını, Azərbaycan Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru Yaşar Qarayevi, professor Qəzənfər Paşayevi və “Ədəbiyyat qəzeti”nin baş redaktoru Ayaz Vəfalını, eləcə də kərküklü Mustafa Ziya və Sabah Karaaltunu böyük səmimiyyətlə qarşılayır və öz evində qəbul edir. Qəhvə süfrəsi arxasında maraqlı söhbətlər başlayır. İlk olaraq Anar deyir: “Cənab Əta Tərzibaşı, bildiyiniz kimi, dahi şair Məhəmməd Füzulinin 500 illiyi UNESCO-nun qərarı ilə dünya miqyasında qeyd olunmaqdadır. Mədəniyyət dünyasındakı bu tarixi hadisənin ən önəmli səhifələrindən biri də şairin doğulduğu, böyüdüyü, yazıb-yaratdığı və nəhayət, qoynunda uyuduğu İraqda yaşanır. Şairin İmam Hüseyn türbəsindəki məzarını da ziyarət etdik. Bu gün Füzulinin nəvələrinin yaşadığı Kərkükün qonağıyıq. İlk istəyimiz sizi görmək idi. Siz təkcə İraqda deyil, Türkiyədə, Azərbaycanda və digər ölkələrdə Türkman xoyratlarının, manilərinin ən məşhur toplayıcısı, araşdırmaçısı və məşhur elm adamısınız. Azərbaycan Yazıçılar Birliyi sizi fəxri üzv seçib və fəxri üzvlük vəsiqəsini sizə təqdim etməyi də mənə həvalə edib. Bu şərəfli işi böyük məmnuniyyətlə yerinə yetirirəm”.

Anar Yazıçılar Birliyinin üzvlük vəsiqəsini Əta bəyə təqdim etdikdən sonra Sabir Rüstəmxanlı danışır. O, öz çıxışında Əta Tərzibaşının folklorşünaslıq fəaliyyətinə toxunur və alimin bu sahədə gördüyü işləri yüksək qiymətləndirir. Əta Tərzibaşının çox dəyərli əsəri olan “Xoyratlar və manilər” kitabının Azərbaycanda çap edilməli olduğunu və nazirliyin bu istiqamətdə əlindən gələn köməyi göstərməyə hazır olduğunu qeyd edir.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Yaşar Qarayev isə bunları söyləyir: “Əta Tərzibaşının adının və imzasının Azərbaycanın çağdaş sənət və elmi yaddaşında müqəddəs bir örnək və simvol olaraq yazıldığını desəm, səhv etmərəm. Mənə görə, “Ata” kəlməsi Kərkük türkmanlarının Xəzər sahillərindəki soydaşlarına ilk müjdəni və ilk sualı gətirənlərin “atası” anlamına gəlməkdədir. “Tərzibaşı” kəlməsi isə mənim üçün bu xoyratların ilk müasir araşdırma və analiz yöntəmi anlamına gəlir”.

Daha sonra Yaşar Qarayev deyir ki, İraqda ziyarət etdiyimiz yerlərin və şəxslərin siyahısında Əta Tərzibaşı öndə gəlir. Bu, Azərbaycan xalqının Əta Tərzibaşıya, Füzulinin nəvələrinə və Türkman folkloruna qarşı hiss etdikləri səmimi sevgi və məhəbbətin təzahürüdür. Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü vəsiqəsinin evindəcə özünə təqdim edilməsi də bunun göstəricisidir. Bu münasibətlə hər şeydən əvvəl onun özünü təbrik edirəm. Əmin edirəm ki, Ədəbiyyat İnstitutunun çapa hazırladığı folklor antologiyasında “İraq-türkman folkloru” cildinin redaktoru, toplayıcısı və tədqiqatçısı kimi Əta Tərzibaşı imzası qeyd olunacaq.

O zaman İraq-türkman folklorunun tanınmış tədqiqatçısı professor Qəzənfər Paşayev mərhum şairimiz Rəsul Rza ilə birgə “Kərkük bayatıları”, “İraq-türkman bayatıları”, “Arzu-Qəmbər dastanı” kimi dəyərli əsərləri ərsəyə gətirmişdi. Onun ustad Əta Tərzibaşının “Kərkük mahnıları”, “Kərkük atalar sözləri və məsəlləri”, “Kərkük folklor antologiyası” kitablarını Azərbaycanda nəşr etməsi oxucular arasında böyük rəğbətlə qarşılanmışdı. Professor Qəzənfər Paşayev Əta Tərzibaşı ilə görüşdə bunları dedi: “50-ci illərin sonuna qədər İraqda yaşayan soydaşlarımızın ədəbi və mədəni zənginlikləri haqqında heç bir məlumatımız yox idi. 1950-ci illərin sonlarında Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadənin İraq səfərindən gətirdikləri hədiyyələr arasında ən dəyərlisi Əta bəyin üç cildlik “Kərkük xoyratları və maniləri” adlı kitabı olduğunu deyə bilərəm. İraqda çalışdığım illərdə Əta Tərzibaşının necə ciddiyyətlə türkman folklorunu topladığının, araşdırdığının və yayınladığının şahidi oldum. İraq-türkman folkloru ilə bağlı ilk dərsimi 1964-cü ildə Bağdaddakı Türkman Qardaşlıq Ocağında Əta Tərzibaşı ilə üç saatlıq bir toplantı sırasında aldım. İraq-türkman folklor nümunələrinin ölkəmizdə bir neçə dəfə nəşr edilməsi və kütləviləşməsi sahəsində gördüyüm işlərdə və ayrıca folklor araşdırmalarına dair dissertasiya yazmağımda Əta Tərzibaşının əsərlərinin böyük təsiri oldu. Onun bu zəngin və mənəvi yardımını heç bir zaman unutmayacağam”.

Ayaz Vəfalı isə bu fikirləri dilə gətirdi: “Əta bəy, Bakıdan Bağdada yola düşmək ərəfəsində “Gənclik” nəşriyyatında çap edilən “Füzulinin yaradıcılığı” kitabımı özümlə gətirdim. Səhifələrinə baxdığınız zaman 3 cildlik “Kərkük xoyratları və maniləri” adlı kitabınızdan sitatlar görəcəksiniz. Ərəb əlifbası ilə çap edilən həmin əsərinizi mənə 60-cı illərin əvvəllərində rəhmətlik şairimiz Qasım Qasımzadə hədiyyə etmişdi. O sıralarda Füzuli və xalq yaradıcılığı ilə bağlı dissertasiya üzərində işləyirdim. Bu kitablara aşina olmağım mövzuya tamamilə yeni bir baxış gətirməyimə səbəb oldu. Yüz illərdir, İraqdakı soydaşlarımızın qəlbində yaşayan böyük söz zənginliyi xaricində Füzulinin mirasının kültürəl qaynaqlarını necə xəyal edə bilərdik? Daha sonra “Qardaşlıq” dərgisindəki ayrı-ayrı yazılarım haqqındakı fikirləriniz və imzalı olaraq göndərdiyiniz “Kərkük xoyratları və maniləri” (İstanbul, 1975) kitabınız heç bir zaman unutmayacağım hədiyyələrdəndir”.

Füzulinin 500 illik yubileyinin yüksək səviyyədə keçirildiyi, Azərbaycan–İraq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayan Azərbaycan nümayəndə heyəti tərəfindən İraq-türkman və Azərbaycan folklorunun bir bütöv zənginlik təşkil etdiyi, bu işdə Rəsul Rza, Qəzənfər Paşayev, Əbdüllətif Bəndəroğlunun xidmətlərinin yüksək olduğu və hər bir tədqiqatçının ustad Əta Tərzibaşının cızdığı yolla getdiyi qeyd edildi. Sonda Əta Tərzibaşı gülər üzlə “Kərkük havaları” və “Kərkük şairləri” kitablarını ziyarətçilərə təqdim etdi və xatirə şəkli çəkdirildi.

Bağdaddan Kərkükü ziyarətə gələn Azərbaycan nümayəndə heyəti Kərkük qalasını və Çarşı bazarı ziyarət etdikdən sonra “Əl-Neşat əl-Mədrəsi” salonunda konsert təqdim edildi. 20 sentyabrda baş tutan konsertdə salon minlərlə türkman tərəfindən tamamilə dolduruldu. Bir çox insan konsert salonuna girə bilməyib, çıxışları çöldən dinləməli oldu. 20 sentyabr günü türkmanlar üçün tarixi bir gün idi. Onlar ilk dəfə olaraq bir nümayəndə heyətinin öz dillərində şeir, mahnı oxuduğunu eşidirdilər. Füzulinin “Leyli və Məcnun” əsəri əsasında yazılmış operanı ifa edən Mənsum İbrahimovun çıxışı zəlzələ effekti yaratdı. Səhəri gün heyət Bağdada döndü, bu şəhərin görməli və tarixi yerlərini gəzdikdən sonra Babilə festivala yola düşdü.

Dahi şairin anadan olmasının 500-cü ilində təşkil edilən Beynəlxalq Füzuli festivalı üçün Azərbaycandan İraqa gələn 128 nəfərlik nümayəndə heyəti bu ölkədə böyük qonaqpərvərliklə qarşılandı və nəzərdə tutulan 4 gün əvəzinə burada 1 həftə qaldı. Bu isə, öz növbəsində, nümayəndə heyətinin başqa tədbirlərdə də iştirakına imkan yaratdı. Onlar proqramda nəzərdə tutulmayan Babil Mədəniyyət Festivalına da dəvət edildilər. Azərbaycanın məşhur sənətçiləri bu festivalda da çıxış edərək ölkələrini təmsil etdilər. Beləcə, Azərbaycan və İraq arasında ədəbi-mədəni əlaqələr Səddam zamanında da öz müsbət nəticəsini vermiş oldu. Yuxarıda qeyd olunan məqamlar fikirlərimizi təsdiq edir...

Festival çərçivəsində İraq Tanıtma və Mədəniyyət Nazirliyi İşlər idarəsi tərəfindən nəşr edilən, Əbdüllətif Bəndəroğlu tərəfindən araşdırılan Füzulinin “Mətlə ül-Etiqad” kitabının təqdimatı da oldu. Festivalın bağlanış mərasimində son çıxışı Əbdüllətif Bəndəroğlu etdi. Onun həmin çıxışı bir çox cəhətdən maraq kəsb etdiyi üçün xatırlanmasına ehtiyac duyuruq:

“Hörmətli qonaqlarımız!

Üç gündən bəri davam edən böyük şairimiz Bayatlı Süleymanoğlu Məhəmməd Füzuli Bağdadinin anadan olması bayramını gülə-gülə, sevinc və sevgiylə yaşadıq. İraq dövlətinin qərarı ilə hazırlanan bu bayram, bu festival iki xalq üçün, İraq və Azərbaycan xalqları üçün unudulmaz tarixi hadisədir. Bu tədbirlər sevginin, dostluq və qardaşlıq əlaqələrinin gün keçdikcə inkişaf edəcəyinə bir dəlalətdir.

Siz – dəyərli azərbaycanlı qonaqlarımız zəhmət çəkib Azərbaycandan Bağdada qədər gəlibsiniz, bu gəlişinizi bir daha beş yüz il sonra bizim nəvələrimizin nəvələri bəlkə görəcəklər. O zaman bu festivalda iştirak edənlərin adları da yada düşəcəkdir. Füzulinin 500 illik təntənəsi İraq tarixində silinməyən və unudulmayan bir hadisə kimi qalacaqdır. Çünki İraqın embarqo yaşadığı bir vaxtda belə bir təntənəni hazırlamaq elə embarqonu dəlmək deməkdir. Öz torpaqlarını müdafiə edən bir xalqın iradəsinin nə qədər qüvvətli olduğunu göstərməkdədir. Sizin bura gəlişiniz Füzulinin ruhunu şad etdi. Füzulini İraqın hər bir köşəsində tanıtdırdı. Zəhmət çəkib gözəl Bağdada gəlmənizi İraq Mədəniyyət və İnformasiya Nazirliyi adından sizi salamlayıram. Sağ olun!”.

Sentyabrın 23-nə qədər uzadılan unudulmaz səfər bitincə, Azərbaycan nümayəndə heyətini səhər saat 06.00 radələrində Bağdaddan İran–İraq Münziriyyə sərhəd qapısına qədər iraqlı dostlar hörmətlə yola saldılar. Bir həftə boyunca sürən səfər İraq və Azərbaycan arasında elmi, ədəbi, mədəni əlaqələri daha da inkişaf etdirdi, xeyli canlandırdı. Füzulinin ölməz ruhu sayəsində iki cəmiyyət arasında əlaqələr yeni mərhələyə qədəm qoydu. Hər kəsin istəyi bu cür səfərlərin artırılması və tez-tez keçirilməsi oldu. Füzulinin ruhunu şad, yerini cənnət edəcək qədər dualar eşidildi.

**(ardı var)**

***Şəmsəddin KÜZƏCİ,***
***şair-publisist***

**Kərkük**

Xatirələrə köçənlər

**Tanınmış ictimai xadim, jurnalist, bir neçə çağırış Milli Məclisin deputatı seçilmiş, son 3 ildə parlamentin Mədəniyyət komitəsinin sədri olmuş Qənirə Paşayeva (1975–2023) yorulmaz həyat və fəaliyyəti ilə daim seçilirdi.**

# Türk dünyası sevdalısı Qənirə Paşayeva



Ötən il dünyasını vaxtsız dəyişməsi Qənirə Paşayevanı tanıyan hər kəsi məyus etmişdi. Mərasimlərdən birində Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağcı onun Türk dünyasına qəlbən bağlı olduğunu vurğulayaraq bildirib: “Qənirə Paşayeva Türk dünyasının cəsur qadını idi. O, az ömür sürsə də, üç insan ömrünə bərabər iş görərək, özündən sonra iz qoyub getdi”.

Qənirə Ələsgər qızı Paşayeva 7 mart 1975-ci ildə Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olub. Azərbaycan Dövlət Tibb Universitetinin “Pediatriya” fakültəsini və Bakı Dövlət Universitetinin “Beynəlxalq hüquq” fakültəsini bitirib. Rus və ingilis dillərini səlis bilirdi. Siyasi elmlər üzrə fəlsəfə doktoru, professor idi. Gürcüstanın “Şərəf” ordeni ilə təltif edilmişdi. Azərbaycan Yazıçılar Birliyinin üzvü, 20-dən artıq elmi, publisistik kitabın, romanın, yüzlərcə məqalənin müəllifi, 20-yə yaxın sənədli filmin ssenari müəllifi və baş məsləhətçisi olub. O, həmçinin Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyinin sədri kimi məhsuldar fəaliyyət göstərib. 1998-ci ildən ANS televiziya şirkətində işləyib. Bir müddət Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri olub. Qənirə Paşayeva bir çox sahələrdə çalışsa da, hər zaman siyasətə marağı ilə də seçilib. Məhz bu maraq onu deputatlığa qədər aparıb. Asiya Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri idi.




Bu günlərdə Türkiyədə araşdırmaçı-jurnalist Şəhla Aslanın təşəbbüsü ilə “Qənirə Paşayeva. Portreti” adlı xatirə kitabı işıq üzü görüb. Yeni məqalələr toplusunda bu kimi fikirlər üstünlük təşkil edir. Kitabda Türkiyənin elm və təhsil adamlarının, siyasətçilərin, jurnalistlərin və digər tanınmış şəxslərin yazıları yer alıb. Məqalələrdə Q. Paşayevanın ictimai-siyasi fəaliyyətinə, Türk dünyasının birliyi və inkişafına verdiyi töhfələrə dair düşüncələr geniş işıqlandırılır. Müəlliflər onun şəxsiyyəti və gördüyü işlər haqqında fikirlərini ehtiramla bölüşərək, ictimai xadim kimi fəaliyyətini vurğulayırlar.

Şəhla Aslan bildirib ki, bu kitab Qənirə Paşayevanın düşüncələrini və onun haqqında olan fikirləri gələcək nəsillərə çatdırmaq üçün əhəmiyyətli bir mənbədir: “Türkiyənin tanınmış şəxslərinin yazıları vasitəsilə mərhum Qənirə xanıma olan sevgilər onun həyat yoluna işıq tutur. Kitab Türkiyənin müxtəlif kitabxanalarına və mədəniyyət mərkəzlərinə təqdim ediləcək”.

Qənirə xanım qardaş Türkiyəni Azərbaycan qədər sevirdi. Özü də, ümumilikdə, Türk dünyasında geniş hörmət və rəğbət qazanmışdı. Xatırladaq ki, bundan əvvəl də Qənirə Paşayevanın qardaş ölkədə kitabları çıxıb. Hələ 2010-cu ildə Mustafa Kamal Paşa Atatürkə həsr olunmuş “Dünyanın itirdiyi Böyük İnsan” (TÜSİAB yayınları) kitabı məktəblərə, universitetlərə, kitabxanalara və hərbi hissələrə pulsuz paylanılıb. 2013-cü ildə o, “Qənirə Paşayeva ilə addım-addım Türk Dünyası kitabı” adlı çoxcildliyindən toplanan gəliri bütünlüklə İraq türkmanı olan yetim bir qızın ali təhsil alması üçün Beynəlxalq Kərkük Mədəniyyət Dərnəyinə bağışlayıb. 2014-cü ildə Amasyada “Məndən sonra...”, “Səndən sonra...”, “O...”, “Hesab vaxtı” və digər kitabları təqdim olunub. İmza günündə Qənirə xanım şeirlərinə bəstələnmiş mahnılardan ibarət 5 musiqi albomunu da oxuculara hədiyyə edib.

Növbəti illərdə yazar İmdat Afşarın Türkiyə türkcəsinə uyğunlaşdırmasında onun “Allah sevən qəlblərdədir (“Səni Allaha eşq çatdırır”), “Eşq başqa”, həmmüəllifi olduğu “Qarabağ hekayələri” kitablarının Ankara və İstanbul, Kahramanmaraş şəhərlərində, Nevşəhər və Bayburt vilayətlərində, Malatya, Sinop, Sakarya, Aydın bölgələrində təqdimatları olub. Əsərlərinin satışından əldə edilən vəsait isə yoxsul ailələrin qızlarının universitetdə təhsil ala bilməsinə yönəldilib.

Qənirə Paşayeva imzası “Nobel mükafatlı qadınlar”, Azər Turanla həmmüəllifi olduğu “Əlibəy Hüseynzadə Turan”, “İtirdiyim mutluluq” və “Yalnızlıq alın yazımdır”, “Müasir Avropa təhlükəsizliyi:- Yeni çağırışlar və təhdidlər (Cənubi Qafqaz münaqişələri timsalında)”, “Addım-addım Özbəkistan” adlı kitabları da bəzəyir.

Onun müəllifi olduğu və özünün iştirakı ilə çəkilən son ekran işi də böyük Turan mövzusunda idi. Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr etdiyi “Addım-addım Türkiyə” adlı həmin sənədli filmlə bağlı çəkilişlər Türkiyənin 57 vilayətində aparılıb. Turan dünyasının birlik ismarıcları filmin ana xəttini təşkil edir. Filmin rejissoru Elnurə Kazımova Qənirə Paşayeva ilə birgə ərsəyə gətirdikləri ekran əsərindən danışarkən dedi ki filmin çəkilişində mərhum deputat çox əziyyət çəkmuşdi. “Qənirə xanımın xatirəsinə ehtiram olaraq filmi davam etdirəcəyəm”.

***Əli NƏCƏFXANLI***
***XQ***

# “Malayziyadan görünən Şuşa”

**“Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Malayziyadan görünən Şuşa” adlı layihə həyata keçirib.**



İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə əlaqədar həyata keçirilən layihə çərçivəsində bu ilin iyun ayında Malayziyanın paytaxtı Kuala Lumpur şəhərində Şuşa mədəniyyəti günləri təşkil olunub. Azərbaycan rəssamlarının Qarabağ və Şuşa mövzusunda çəkdiyi rəsmlərdən ibarət sərgi keçirilib, Şuşanın tarixi barədə bədii-sənədli film nümayiş olunub, eyni zamanda, Qarabağ musiqisinin sədaları altında Şuşa mətbəxinin nümunələri təqdim edilib.

Bu barədə Nizami Kino Mərkəzində filmin təqdimatına, həmçinin “Sönməz Məşəl” Mədəni Əlaqələr İctimai Birliyinin yaradılmasının 20 illiyinə həsr olunmuş mərasimdə İB-nin sədri Şəhla Nağıyeva məlumat verib.

Sonra Kuala Lumpurda keçirilən tədbirlər haqqında hazırlanan “Malayziyadan görünən Şuşa” adlı sənədli filmi təqdim edilib.

***XQ***

# "Ortaq Türk Əlifbası" Özbəkistanda sevinclə qarşılanıb

**Məlum olduğu kimi, bu il sentyabrın 9–11-də Beynəlxalq Türk Akademiyası və Türk Dil Qurumu tərəfindən təşkil olunan "Türk dünyası Ortaq Əlifba Komissiyası"nın üçüncü iclası keçirilib. Qurumun Bakıda keçirilən iclasında Ortaq Türk Əlifbasının qəbul olunması ilə bağlı ümumi razılıq əldə edilib və türk dünyasında, o cümlədən Özbəkistanda bu məsələ maraqla qarşılanıb. Müsahibim filologiya üzrə fəlsəfə doktoru Rüstəm Cabbarovdur.**

**– Rüstəm müəllim, necə bilirsiniz, bu ideya – Ortaq Türk Əlifbasının qəbul edilməsi türk xalqları arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsinə, ümumən, türk dünyasının birliyinə xidmət edə biləcəkmi?**

– Əslində, bu ideya ətrafında müzakirələr çoxdan aparılır və ortaq əlifbanın qəbul edilməsi, həqiqi mənada, türk dünyasının birliyinə xidmət edəcək. Mən bir ziyalı kimi bunu dəstəkləyirəm. Tarixə nəzər salsaq, özbək mütəfəkkiri Əlişir Nəvainin əsərləri Osmanlı Türkiyəsində XVIII əsrə qədər asanlıqla oxunurdu və anlaşılırdı. XX əsrin əvvəllərində böyük özbək yazıçısı Abdulla Qədirinin "Ötən günlər" romanı digər türk xalqları tərəfindən oxunurdu və başa düşülürdü. Hamısı əlifbaya görə idi.



Yalnız qardaş xalqların əlifbalarında fərqlər yaranandan sonra Abdulla Oripov və Erkin Vahidovun əsərlərini tərcümə etməyə başladılar. Bundan əlavə, əlifba fərqli olduğu üçün xalqlar arasında ünsiyyət çətinləşdi. Ortaq Əlifbadan danışanda başqa bir məsələ ortaya çıxır. Burada hansı əlifba olmalıdır və dilin hansı xüsusiyyətləri ayrıca məsələ kimi öyrənilməlidir. Təbii ki, siyasətçilərimiz də bununla bağlı daha dərin təhlillər aparmalıdırlar. Bu, heç bir xalqın ziyanına işləməməlidir.

Əlifba məsələsinə həm iqtisadiyyat, həm də siyasət qarışır. Əgər türk xalqlarının Ortaq Əlifbası hər bir türk xalqının əlifbasını əhatə edərsə, tərcüməyə, demək olar ki, ehtiyac qalmayacaq. Biz bəzi türk xalqlarını ancaq ona görə rahat başa düşmürük ki, səslər tələffüzdə fərqlidir. Əslində, feillərimizlə isimlərimiz eynidir.

**– Belə layihələrin həyata keçirilməsində, adətən, müəyyən çətinliklər özünü göstərir. Elə bilirəm ki, praktik fəaliyyətə başlayandan sonra problemlər arxada qalacaq...**

– Mənə məlumdur ki, Ortaq Türk Əlifbasının əsasını 1991-ci ildə hazırlanmış layihə təşkil edib. Bu istiqamətdə 1-ci iclas keçən il Astanada keçirilib. 2-ci iclasda da gərgin iş aparılıb və ən nəhayət, 3-cü yığıncaqda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyədən olan komissiya üzvləri qəbul olunan əlifbanın bu dillər üçün tamamilə uyğun olduğu barədə ümumi razılığa gələ biliblər.

Təbii ki, hər bir işin başlanğıcı asan olmur. Bu əlifbanı bir layihə kimi qəbul etmək bütün türk xalqları üçün bir qədər çətin ola bilər. Bütün türk xalqlarının nümayəndələri mövcud problemləri birlikdə həll etməlidirlər. Çünki Türkmənistanın ziyalıları hələ bu əlifbanın yaradılmasında iştirak etməyiblər. Bundan başqa, Yer kürəsində türk dilində danışan 300 milyon insan yaşayır. Onların bir qismi öz vətənlərindən uzaqda məskunlaşıb.

Xüsusilə, uyğur, tatar, başqırd. Krım tatarları, qaqauz kimi xalqların dili və yazısı nəzərə alınmalıdır. Bu baxımdan hələ görüləsi işlər çoxdur və bu istiqamətdə qardaş türk xalqlarına uğurlar arzulayıram.

*Söhbəti yazdı:*
***Qulu KƏNGƏRLİ,***
*XQ-nin Mərkəzi Asiya müxbiri*

# Bakı sərgilərində ölkəmiz hərbi gücünü nümayiş etdirdi

**Zəfərlə nəticələnən və xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsindən 4 il ötür. Şəhidlərimiz canları, qanları bahasına bizə Qarabağ zəfərini bəxş ediblər. Onların göstərdikləri qəhrəmanlıq hər birimiz üçün ən yüksək dəyərlərin təcəssümüdür. Sözsüz ki, qələbəni reallaşdıran amillərdən biri də ordunun ən yüksək və müasir silah və texnika ilə təchiz edilməsi idi.**

Müdafiə Sənayesi Nazirliyinin təşkilatçılığı və "Caspian Event Organisers" şirkətinin dəstəyi ilə "Bakı Ekspo Mərkəzi"ndə keçirilən və regionun müdafiə sənayesi ilə bağlı ən nəhəng tədbir olan "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi hər bir ölkədə, o cümlədən Azərbaycanda müdafiə tədbirlərinin daima zəruri olduğunu göstərdi. Təsadüfi deyil ki, sərgiləri işıqlandıran dünya mətbuatı ölkəmizin hərbi potensialının yüksək olmasından da bəhs edirdi. Sərgilər çərçivəsində bir çox müqavilələr imzalandı, 40 ölkədən 218-dək hərbi sənaye şirkətinin son yenilikləri ilə tanışlıq oldu. Bu genişmiqyaslı tədbirlər regionda ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişi idi.

Ölkə şirkətlərinin nümayəndələri və rəsmi şəxsləri ilə söhbətimiz zamanı onlar Azərbaycan haqqında olduqca yüksək fikirlər səsləndirib və tərəfdaşlıq etməkdə maraqlı olduqlarını açıq-aşkar bildiriblər. **Türkiyənin "Ulak" rabitə şirkətinin baş meneceri Ruşen Kömürcü öz məhsul və xidmətlərini Azərbaycana təklif etməyə hazır olduqlarını dedi:**

– Sərgilər yüksək səviyyədə keçdi. Biz 5G üçün baza stansiyaları istehsal edirik və xaricə ixrac etməyi planlaşdırırıq. Baza stansiyasından başqa, bizim əsas məhsulumuz "SD-WAN" adlandırdığımız təhlükəsiz rabitəni təmin edən şəbəkə əsaslı qutudur. "Ulak" dövlət, özəl sektorların və ictimaiyyətin kibertəhlükəsizlik və təhlükəsiz rabitə ehtiyaclarını qarşılamaq üçün yaradılmış rabitə şirkətidir. Azərbaycana öz məhsul və xidmətlərimizi təklif etməyə hazırıq.




**Türkiyənin ən böyük müdafiə sənayesi şirkəti olan "Aselsan"ın Bakı nümayəndəliyinin baş meneceri Özgür Kürüm Azərbaycanda olmaqlarından, burada fəaliyyət göstərməklərindən məmnunluğunu ifadə etdi:**

– Azərbaycanın xidmətində olan sistem və məhsullarımız var. Başda rabitə sistemləri olmaqla, radioelektron mübarizə, elektrooptiklər, kəşfiyyat sistemləri və hətta son bir ildə mülki sahədə də inkişaf etdirdiyimiz texnologiyaları Azərbaycana təqdim etdik. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ilə birlikdə "Nəqliyyat Vasitəsi Aşkarlama və Yüksək Sürətli Tərazi Ölçü Sistem Layihəsi" həyata keçirilir. İstərdik ki, birlikdə istehsal etdiyimiz məhsullardan həm Azərbaycanda, həm Türkiyədə istifadə olunsun, həm də üçüncü ölkə bazarlarına sataq.

**"ADEX-2024" sərgisi çərçivəsində "Barzan Holdings" şirkətinin Proqramların İnkişafı üzrə direktoru Sultan Əl-Kuvari də Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını deyib:**

– "Barzan Holdings" şirkəti Qətər Müdafiə Nazirliyinin ticarət qoludur. Bizim üçün belə sərgilərdə iştirak etmək və Azərbaycan kimi bazarlara girmək son dərəcə vacibdir. Bu, ADEX-dəki ilk iştirakımızdır. Burada hər şey yüksək səviyyədə təşkil olunmuşdu.

Sərgilər çərçivəsində ölkəmizlə bağlı bir sıra önəmli görüşlər olub və müqavilələr də imzalanıb. Belə ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyi ilə Türkiyənin Müdafiə Sənayesi Komitəsi, Milli Aerokosmik Agentliyi ilə Türkiyənin "Aselsan" şirkəti, Elmi-Tədqiqat İnstitutu ilə Belarus Respublikasının Dövlət Xarici Ticarət Unitar Müəssisəsi – "Belspesvneştexnika", "Azərsilah" Müdafiə Sənayesi Holdinqi ilə Türkiyənin REPKON, Çinin "China Precision Machinery Import-Export Corporation", Bosniya və Herseqovinanın "Tehnicki Remont Bratunac", Slovakiyanın "MSM Group", İsrailin "AS Holdings" və "Elbit Systems", Serbiyanın "Yugoimport SDPR" şirkətləri arasında işbirliyinin təməli qoyulub.

"ADEX-2024" və "Securex Caspian" sərgiləri çərçivəsində Azərbaycan Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair Anlaşma Memorandumu imzalanıb.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

# Ağdamda multikulturalizm dərsi

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkil etdiyi "Sülhün, dialoqun və tolerantlığın qorunmasında mədəni irsin rolu" adlı XV Beynəlxalq Multikulturalizm Məktəbi dünən Ağdam şəhərində davam edib.**

Məktəb iştirakçıları əvvəlcə 4 il əvvəl sentyabrın 27-də başlamış Vətən müharibəsində işğaldan azad edilmiş, erməni vandalizminin yer üzündən sildiyi Ağdamın dağıntılarına baxıblar, şəhərdə aparılan geniş bərpa-quruculuq işləri ilə yaxından tanış olublar. Müxtəlif xalqları təmsil edən beynəlmiləl qrup Ağdam Cümə məscidində, Şəhidlər xiyabanında, İmarət Kompleksində olublar.

Saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini anım duruşu ilə yad ediblər.

Sonra tələbələr Mədəniyyət Nazirliyinin bərpa mütəxəssisi Ləman Əliyevanın "Azərbaycan mədəni irsinə qarşı vandalizm aktları" mövzusunda mühazirəsini dinləyiblər.

Bildirilib ki, 30 illik işğal dövründə Ermənistan dövləti Azərbaycanın 20 faiz ərazisində şəhər və kəndləri yer üzündən silib, mədəni irsi bütünlüklə məhv edib, 800 min əhalini öz yurdunda məcburi köçkünə çevirib, ətraf mühitə sağalmaz yaralar vurub. Ermənilərin irimiqyaslı mina terroru dinc şəraitdə çoxsaylı soydaşımızın həyatına son qoyub, insanlara əlillik gətirib. Bütün bunlara baxmayaraq Qərb ölkələrindəki himayədarları bu gün də Ermənistanın bəşəri cinayətlərinə göz yumur, bu ölkədə revanşizmi qızışdırırlar.

Mühazirə maraqla dinlənilib, verilən suallar cavablandırılıb.

***XQ***



**A.Bakıxanov – 230**

# Ensiklopedik alimin Quba həyatı

**Xalqımızın ictimai-siyasi, mədəni həyatının inkişafında dərin iz qoymuş Abbasqulu ağa Bakıxanov 230 il öncə, yəni 1794-cü ildə Bakının Əmircan (Xilə) kəndində II Mirzə Məhəmməd xanın ailəsində dünyaya göz açmışdır. O, dərin zəkası və əzmkarlığı sayəsində dövrünün görkəmli alimi, şair və mütəfəkkiri səviyyəsinə yüksələrək böyük şöhrət qazanmışdır.**




Məlumdur ki, XVIII əsrin 2-ci yarısında Azərbaycan xanlıqları arasında nifaq güclənmişdi. 1802-ci ildə Bakı xanı Hüseynqulu xan II Mirzə Məhəmməd xanı qəti olaraq xanlığın idarəçiliyindən kənarlaşdıraraq, onu Qubaya köçməyə məcbur etmişdir. Quba xanı Şeyxəli xan II Mirzə Məhəmməd xana Amsar kəndi də daxil olmaqla bir neçə kənd bağışlamışdır.

Beləcə, A.A.Bakıxanovun uşaqlıq və yeniyetməlik illəri atasının Amsar kəndindəki malikanəsində keçmişdir. Qeyd etmək lazımdır ki, kiçik Abbasqulu hələ uşaq yaşlarından mərd və ədalətli hərəkətləri ilə ətrafdakıların diqqətini özünə cəlb etmişdir. O, bir dəfə böyük cəsarət göstərərək Şeyxəli xanın əmri ilə hər iki gözü çıxarılmağa məhkum edilən balaca Nağını ağır cəzadan xilas etmişdir. Quranı, ərəb, fars və rus dillərini mükəmməl öyrənən A.A. Bakıxanov 1819-cu ilin dekabrında Qafqazın baş hakimi general A.P.Yermolov tərəfindən Tiflisə dəvət olunaraq, burada Şərq dilləri üzrə tərcüməçi vəzifəsinə təyin olunmuşdur.

Xatırladaq ki, Bakıətrafı kəndlərdə Bakıxanovların nəslindən olub, bu soyadı daşıyanlar indi də vardır. Onlardan biri də Bakının Mərdəkan kəndində yaşayan Mülük bəy Bakıxanovdur. Ədəbiyyatşünas alim, professor Feyzulla Qasımzadə bu barədə xatirələrində yazmışdır: "Bakıxanovlar nəslindən olub, şəxsən onu görən Mülük bəy Bakıxanov ölümündən bir il əvvəl, yəni 1930-cu ilin yayında mənə Abbasqulunun Peterburq səfərindən danışdı. Mülük bəy dedi ki, bakılı II Mirzə Məhəmməd xanın oğlu Abbasqulu ağanın uzun çəkən Rusiya səyahətindən qayıtmasını eşitdikdə, atam Abbasəli ağa Qubaya onun görüşünə getdi və məni də özü ilə apardı. Mirzə Məhəmməd xan bu zaman Qubanın yaxınlığındakı Əmsar (indiki Amsar) kəndində olan imarətində yaşayırdı. Biz evlərində, Amsar kəndində yaşayırdılar və oğullarının qayıtmasını gözləyirdilər. Onlarla birgə, cavan Səkinə – Abbasqulunun yeganə həyat yoldaşı yaşayır və o, arvadını İran şahının bütün hərəmxanasına dəyişməz. Hətta rus gözəllərinin arasında da unutmaz".

Yeri gəlmişkən, A.A.Bakıxanov Amsar kəndində "Gülüstan" adlı ədəbi məclis yaratmış, vaxtaşırı bu məclisə dövrün istedadlı şair və alimlərini dəvət etmişdir. Abbasqulu ağa burada ruhani söhbətlərlə yanaşı Nizami, Nəsimi, Füzuli, Mövlanə, Hafiz poeziyası barədə fikir və mülahizələrini bildirmiş, Qüdsi təxəllüsü ilə yazdığı yeni şeirlərini oxumuşdur.

Təəssüf ki, 1837-ci ildən sonra Abbasqulu ağanın və ailəsinin həyatında çətin günlər başlamışdır. Belə ki, həmin il baş vermiş məşhur Quba üsyanında fəal iştirak edən qaynı Əli Paşa bəy qətlə yetirilmişdi. Qafqazın ovaxtkı canişini Baron Rozen Quba üsyanına görə Abbasqulu ağa Bakıxanovu təcili Tiflisə çağırtdırmışdır.

Tiflisə gələn A.A.Bakıxanov çar məmurlarının özbaşınalıqlarından söz açaraq vergilərin artırılmasını pisləmişdir. Bütün bunlar Rozenin xoşuna gəlməmişdir. O, 1837-ci il dekabrın 10-da hərbi nazir Çernışevə yazdığı məktubda göstərib ki, "Abbasqulunu mən Tiflisə çağırıb ona xüsusi bir tapşırıq verdim, o isə bunu icra etmədi. Buraya gələndən o, məni daima özündən narazı salmışdır. Mənim ona heç bir etimadım yoxdur". Qafqazın canişini çar I Nikolaya yazılan məktubunda da Bakıxanovun hökumət yanında etibarını itirmiş, "şübhəli adam" olduğunu bildirmişdir.

1841-ci ildə A.A.Bakıxanov uzun illər apardığı gərgin elmi axtarışların nəticəsi olaraq Azərbaycanın tarixi haqqında sanballı "Gülüstani-İrəm" əsərini fars dilində yazaraq tamamlamışdır. 1844-cü ildə isə həmin əsəri rus dilinə tərcümə etmişdir.



burada Mirzə Məhəmməd xanın özü və səfərdən yenicə qayıtmış oğlu Abbasqulu ağa ilə görüşdük və bir həftə onların evində qonaq qaldıq. Bizə çox hörmət etdilər. Mirzə Məhəmməd xan və arvadı Sofiya xanım artıq qocalmışdılar, onlar oğullarının səfərdən sağ və salamat qayıtmasından nəhayət dərəcədə sevinirdilər.

Mülük bəy xatirələrində həmçinin bildirib ki, Abbasqulu ağa gəzdiyi yerlər haqqında etdiyi şirin və maraqlı söhbətləri ilə onları məşğul etmişdir. Abbasqulu ağa Peterburq səfərindən danışarkən rus padşahının sarayında verilən böyük ziyafət məclisində iştirak etdiyini, rus çarı I Nikolay, onun arvadı və kübar rus dvoryan (zadəgan) ailələri ilə görüşüb tanış olduğunu nəql etmişdir.

Abbasqulu ağa macal tapan kimi Tiflisdən Qubaya gələrək valideynlərini ziyarət etməyi özünə borc bilərdi. 1835-ci ildə də məzuniyyətini atasının Amsar kəndindəki malikanəsində keçirib. Həmin ərəfədə Qubaya səfər etmiş rus yazıçısı Yakov Ozeretskovski bu barədə xatirələrində belə yazmışdır: "Mirzə Məhəmməd xan və arvadı Sofiya xanım artıq qocalmışdılar. Onlar əvvəlki kimi özlərinin şəhər kənarındakı evlərində, ... 

Lakin çar hökuməti əsərin rus dilində geniş oxucu kütləsinə təqdim olunmasına maneələr yaratmışdır.

Kitabın rus dilində işıq üzü görməsinə nail olmayan A.A.Bakıxanov bundan sonra çar hökumətinə müraciət edərək Şərqə səyahət etmək üçün bir illik məzuniyyət almışdır. Səyahətdə olarkən yol boyu Türkiyə, Misir və Ərəbistanın şəhər və kəndlərini gəzmiş, bu ölkələrin tarixi, mədəniyyəti, insanların adət-ənənələri, məişəti ilə yaxından maraqlanmışdır.

Nəhayət, Bakıxanov müqəddəs Məkkə torpağına çataraq Kəbəni ziyarət etmişdir. Təəssüf ki, 1847-ci ildə ziyarətdən qayıdarkən Mədinə və Məkkə arasındakı "Vadii-Fatimə" adlı ərazidə vəba xəstəliyinə tutularaq vəfat etmişdir.

Qubanın Amsar kəndində Bakıxanovun ev muzeyi yaradılmış, binanın önündə büstü ucaldılmışdır. Muzey hazırda Qubanın mədəni turizm məkanlarından biri sayılır. B.A.Bakıxanov yüz illər keçsə belə, xalqımızın böyük mütəfəkkiri kimi qəlblərdə əbədiyyət qazanmışdır!

***Təranə CƏBİYEVA,***
*müstəqil araşdırmaçı*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 213 (30617) 29 sentyabr 2024-cü il, bazar

## İdman xəbərləri

# X Memorialda şahmatçımız 3-cü oldu

**Şuşada keçirilən şahmat üzrə X Vüqar Həşimov Memorialının qalibləri məlum olub.**




Xatirə turnirində Beynəlxalq Şahmat Federasiyasının bayrağı altında mübarizə aparan Yan Nepomnyaşi rəqiblərini qabaqlayaraq 1-ci yeri tutub. Rapid yarışında 10 xal toplayan qrosmeyster blitsdə hesabına 9 xal yazdırıb. O, yekunda 19 xalla turnirin qalibi olub.

Özbəkistanlı Nodirbek Abdusattorov (18) 2-ci, Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov (16) isə 3-cü yeri tutub.

Xatırladaq ki, memorialı Azərbaycan Şahmat Federasiyası, Vüqar Həşimov Şahmat Fondu, Gənclər və İdman Nazirliyi birgə təşkil edib.

# Gimnastlarımız Dünya çempionatının finalında



**Aerobika gimnastikası üzrə Azərbaycan millisinin üzvləri İtaliyanın Pesaro şəhərində keçirilən dünya çempionatında finala vəsiqə qazanıblar.**

Təmsilçilərimiz Mədinə Mustafayeva və Vladimir Dolmatovdan ibarət qarışıq cütü təsnifat mərhələsində 20.050 xalla ikinci olub.

Qeyd edək ki, dünya çempionatı sentyabrın 29-da başa çatacaq.

# Taekvondoçularımız 14 mükafat qazanıblar




**Azərbaycanın yeniyetmə taekvondoçuları Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən "Albania Open" turnirində 14 medal qazanıblar.**

Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, bunlardan 5-i qızıl, 2-si gümüş, 7-si bürünc mükafatdır.

Qeyd edək ki, turnir sentyabrın 29-da başa çatacaq.

# Budvada 2 qızıl medal



**Azərbaycanın bədii gimnastları Zəhra Cəfərova və Şəms Ağahüseynova Monteneqronun Budva şəhərində keçirilən Balkan Kubokunda qızıl medal qazanıblar.**

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, yığma üzvləri top, lent və çoxnövçülük proqramları üzrə birinci yeri tutublar.

Sentyabrın 26-sı start götürən yarışa ayın 29-u yekun vurulacaq.

*Leyla QURBANOVA*
*XQ*

# "O şənbə gecəsi yox oldu Gəncə..."




**Aradan isə nə az, nə çox, düz 885 il keçir. O müdhiş gecəni dahi Nizami Gəncəvi "İskəndərnamə" poemasında belə təsvir edib:**

*Heç bir göz salamət qalmadı inan*
*Matəm sürməsinə qərq oldu cahan*
*O qədər xəzinə batdı o gecə,*
*O şənbə gecəsi yox oldu Gəncə...*

1139-cu il sentyabrın 30-da baş verən dəhşətli zəlzələdən düz 2 il sonra, elə bu sentyabr günlərində dünyaya göz açan Əbu İlyas ibn Yusif bu sətirləri yazarkən təbii ki, böyüklərin, bu dəhşəti öz gözləri ilə görənlərin söylədiklərinə əsaslanaraq nəzmə çəkib:

*Qopdu bir zəlzələ, göyü oynatdı,*
*Şəhərlər dağılıb yerlərə batdı.*
*Dağ-daş sarsılaraq qopub uçanda*
*Fələk toz altında qaldı bir anda...*

Tarixçilər, tədqiqatçılar, səyyahlar, şahidlər Gəncə zəlzələsi haqqında çox yazıblar. Bu zəlzələ Səlcuq hökmranlığı zamanı baş vermişdir. Zəlzələnin şahidi, Gəncə sakini, alban tarixçisi və hüquqşünası Mxitar Qoş baş verənləri bu cür təsvir edir: "Areq ayının 18-ci günü, cümə günündən şənbəyə keçən gecə (30 sentyabr 1139-cu il) Allahın şiddətli qəzəbi dünyaya töküldü. Yerin hiddəti və qüvvətli dağıntı dəhşətli qəzəblə bu Alban torpağına yetişdi. Bunun nəticəsində onun paytaxtı Gəncə də öz sakinlərini udaraq, cəhənnəmə atıldı".



Zəlzələ Gəncədən 50 kilometr cənubda baş verib.Təbii fəlakət o qədər dağıdıcı olub ki, Kəpəz dağı yarılıb və uçaraq Ağsu çayının qarşısını bir neçə yerdən kəsib. Nəticədə Göygöl, Maralgöl, Ceyrangöl, Ördəkgöl, Zəligöl, Ağgöl, Qaragöl Şamlıgöl, bütövlükdə 20-yə yaxın irili-xırdalı göllər yaranıb. Bu haqda Gəncəli Kirakos belə yazıb: "Dağ və düzü duman, buludlar bürüdü, dəhşətli zəlzələ baş verdi. Gəncə dağıldı. Kəpəz dağı uçdu və təpələrdən axan xırda çayların qarşısını kəsərək göl əmələ gətirdi".

Bəzi mənbələrə görə, bu zaman 230 min, bəzilərinə görə isə 300 min insan həlak olub. Zəlzələdən sonra Gəncə şəhəri əvvəl yerləşdiyi ərazidən bir az şərqdə yenidən salınıb. Bu, bir daha zəlzələnin vurduğu ağlasığmaz fəlakətin miqyasını göstərir ki, şəhəri yenidən bərpa etmək mümkün olmayıb və o, indiki ərazidə tamamilə yenidən salınmağa başlanıb.

Tarixdə dağıdıcı zəlzələlər çox olub və Gəncədə 885 il qabaq baş verən zəlzələnin, təxminən, 9 bal gücündə olduğu güman edilir. Maraqlıdır ki, Gəncə zəlzələzindən düz bir il qabaq, yəni 11 oktyabr 1138-ci ildə Suriyanın Hələb şəhərində də 8,5 bal gücündə zəlzələ olub və 230.000-dən çox insanın həyatına son qoyub. Hələb şəhəri əhalisinin sayı yalnız bir neçə əsr sonra bərpa edilib. Bu zəlzələ 1138-1139-cu illərdə baş verən, müasir Suriyanın şimalını, Türkiyənin cənub-qərbini, daha sonra isə İran və Azərbaycan ərazilərini əhatə edən silsilə zəlzələlərin bir hissəsi olub.

...Zəlzələ təbii fəlakətlərin ən dəhşətlisidir. Günahsız, köməksiz insanlar bir anda həyatlarını itirir, evlər-eşiklər dağılır, viran qalır. Təsadüfi deyil ki, bu təbii fəlakətlər zamanı bütün ölkələr, münasibətlərinin isti olub-olmamasına baxmayaraq, bir-birinə kömək əlini uzadır, çətin anlarda dayaq durmağı özlərinə mənəvi borc bilirlər.

Bir çox ölkələrdə həmin "qara gün"də həlak olanların xatirəsi yad edilir, zəlzələnin baş verdiyi məkanda adi bir daş parçasının da önünə gül dəstələri qoyurlar. Türkiyənin Yalova şəhərində zəlzələ qurbanlarının xatirəsinə möhtəşəm abidə ucaldılıb və hər il bu bölgəyə yüz minlərlə xarici qonaq gəlir. Oxşar abidələr, memorial lövhələr, tanıtım yerləri başqa ölkələrdə də var. Bəs Azərbaycanda, konkret olaraq Gəncədə buna bənzər nəsə varmı? Təəssüf ki, yox.

Hər il Hacıkəndə, Göygölə, Maralgölə və digər yerlərə minlərlə xarici turist gəlir. Onların əksəriyyəti bilmir ki, 9 əsr qabaq bu bölgədə nə baş verib, on minlərlə insan bir andaca torpaq altında qalıb və sair. Yeri gəlmişkən qeyd edim ki, Gəncə zəlzələsinin tarixi də hələ layiqincə tədqiq olunmayıb. Dünyada baş verən zəlzələlər haqqında kifayət qədər məlumatlar var, çoxlu ədəbiyyat, tarixi faktlar mövcuddur, araşdırmalar aparılır. Gəncə zəlzələsinin adı hətta bəzi ölkələrin ensiklopediyasına belə düşməyib, məlumat yoxdur.

Tarixi araşdırmasan, onun arxasınca getməsən, o, tədricən itib batacaq və əsrlər keçəcək, soruşacaqlar ki, "məgər Gəncədə belə dəhşətli zəlzələ olub?". Yaxşı olmazmı ki, tariximizin ayrılmaz hissəsi hesab edilən və o dəhşətli günü özündə əks etdirən möhtəşəm bir abidə elə Kəpəzin ətəyində, Göygölün sahilində ucaldılsın? Zənnimcə, bu, keçmişimizə və tariximizə ən böyük hörmət olardı...

Təkcə keçən il Göygölə 200 min nəfərdən çox turist gəlib. Onların arasında çoxlu xarici qonaqlar da olub. Bu il də göllər gözəlinin sahillərində qələbəlik olub. Fikrimizi Göygöl Milli Parkının direktoru Fuad Quliyevə deyəndə o, çox sevindi:

- Əla təklifdir. Sentyabrın 30-da, yəni Gəncə zəlzələsinin baş verdiyi gün şəhər icra hakimiyyətinin qarşısındakı Meydanda Milli parklar Gününə həsr olunmuş böyük tədbir keçirəcəyik. Orada mütləq bu barədə çıxış edəcəyəm. Düz deyirsiniz, tarix yaşadılmasa o, tədricən unudulacaq. "Gəncə zəlzələsi" abidəsinin yerinin seçilməsində də təkliflərim olacaq.

Bizə belə gəlir ki, əzəmətli bir abidənin ucaldılması üçün Gəncə Şəhər İcra Hakimiyyəti, Elm və Təhsil, Ekologiya və Təbii Sərvətlər nazirlikləri məsələ qaldıracaq və növbəti ildə başı bəlalar çəkmiş Kəpəzin ətəyində tariximizin daha bir səhifəsi yazılacaqdır...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

## Hava



# Payız gəldi – əsdi küləklər...

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.**

Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-70 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 12-17° isti, gündüz 22-27° isti, dağlarda gecə 4-8° isti, gündüz 8-13° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Modern texnologiyalar

# Süni zəkanın vicdanı olacaqmı?

**Süni zəka insan rəhbərliyi altında məlumatları təhlil etmək, təcrübədən öyrənmək və ağıllı qərarlar qəbul etmək üçün proqramlaşdırılır. Hazırda ondan həm də çox təhlükəli məqsədlər üçün istifadə edilir. Bura mərmiyə çevrilən pilotsuz təyyarələr, ictimai şüuru manipulyasiya edən saxta videolar və avtomatlaşdırılmış kompüter sındırmaları daxildir.**



Məsələn, generativ süni zəkanın geniş imkanları təkcə dünyanın hər yerindən istifadəçiləri deyil, həm də kibercinayətkarları cəlb edir. Bu cür süni zəka alətləri artıq inandırıcı fişinq mesajları, zərərli kod yaratmaq və ya zəiflikləri tapmaq kimi mənfi məqsədlər üçün istifadə olunur. Şəxs və ya təşkilatlara qarşı dosye yaradılır, saxta xəbərlər və dezinformasiyalar yayılır. Nəyin saxta, nəyin doğru olduğunu fərqləndirmək isə getdikcə çətinləşir.

Süni intellekt həm də mürəkkəb problemlərin həlli yollarını tapa bilir. Elə problemlər var ki, onların həlli insanlara zərər verə bilər, məsələn, qadağan olunmuş və ya təhlükəli kimyəvi birləşmələrin yaradılması.

Bəs, görəsən, süni zəkanın insanın əmrlərini saf-çürük etmək üçün vicdanı olacaqmı?

***PÜNHAN***
***XQ***

*✓ 2017-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabirabad Rayon Şöbəsi tərəfindən gizir Cəfərov Faiq Cavanşir oğlunun adına verilmiş SQ 0013564 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4002 |
| SİFARİŞ | 2180 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00